AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

22 DEKABR 2018-ci il ŞƏNBƏ № 287 (6320) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Azərbaycan Respublikasında 2019-cu il üçün yaşayış minimumu haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1. Əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumunun məbləği**

2019-cu il üçün yaşayış minimumu ölkə üzrə 180 manat, əmək qabiliyyətli əhali üçün 191 manat, pensiyaçılar üçün 149 manat, uşaqlar üçün 160 manat məbləğində müəyyən edilsin.

**Maddə 2. Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2019-cu il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 30 noyabr 2018-ci il.**

## "Azərbaycan Respublikasında 2019-cu il üçün yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1352-VQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında 2019-cu il üçün yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1352-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasında 2019-cu il üçün yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasında 2019-cu il üçün yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 21 dekabr 2018-ci il.**

## "Azərbaycan Respublikasında 2019-cu il üçün ehtiyac meyarının həddi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1353-VQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında 2019-cu il üçün ehtiyac meyarının həddi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1353-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasında 2019-cu il üçün ehtiyac meyarının həddi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasında 2019-cu il üçün ehtiyac meyarının həddi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 21 dekabr 2018-ci il.**

# Prezident İlham Əliyev Heydər Əliyev adına neft emalı zavodunda bitum qurğusunun və maye qazdoldurma məntəqəsinin açılışında iştirak edib

**Heydər Əliyev adına neft emalı zavodunda aparılan yenidənqurma və modernləşdirmə layihəsinin birinci mərhələsi çərçivəsində inşa edilən yeni bitum qurğusunun və maye qazdoldurma məntəqəsinin dekabrın 21-də açılış mərasimi olub.**



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlət Neft Şirkətinin - SOCAR-ın prezidenti Rövnəq Abdullayev görülən işlərlə bağlı dövlətimizin başçısı İlham Əliyevə məlumat verdi.

Bildirildi ki, bitum qurğusu istismara verildikdən sonra burada illik istehsal 250 min tondan 400 min tona çatdırılacaq. Bu həcm



2016-cı ildə Avstriyanın "Poerner" şirkəti ilə yeni bitum qurğusunun inşası üzrə detallı layihələndirmə, satınalma və tikintinin idarə edilməsi müqaviləsi imzalanıb. 2017-ci ilin aprel ayından tikintinin podratçısı "Azfen" şirkəti tərəfindən qurğunun inşasına başlanılıb. Tikinti prosesinə 400 yerli işçi və mütəxəssis cəlb olunub. Layihə qrafikə uyğun başa çatdırılıb.

Maye qazdoldurma stansiyası 7 avtoçənə və 5 çən vaqona yükləmə qolundan ibarətdir. Bu məntəqədən il ərzində 180 min ton propan-propilen, 100 min ton mayeləşmiş qazın avtoçən və dəmir yolu, 178 min ton butan-butilen fraksiyasının isə boru xətti, lazım olduğu təqdirdə avtoçən və ya dəmir yolu ilə nəqli nəzərdə tutulub. Propan-propilen və butan-bu-



ölkədaxili tələbatın təminatı üçün nəzərdə tutulur. Bu qurğuda "PEN 40-60" markalı yüksək keyfiyyətli bitum istehsal ediləcək. Növbəti mərhələlərdə AVRO-5 standartına cavab verən dizel və benzin yanacağının istehsalı nəzərdə tutulur və artıq bu istiqamətlərdə də işlər sürətlə davam etdirilir.

Heydər Əliyev adına neft emalı zavodunda yenidənqurma işlərinin aparılması, həmçinin keçmiş "Azərneftyağ" neft emalı zavodunun ərazisinin mərhələli şəkildə boşaldılaraq, "Ağ şəhər" layihəsinə təhvil verilməsi nəzərdə tutulduğundan, yeni bitum istehsalı qurğusunun tikintisi zəruri idi. Bitum qurğusu 7,7 hektar ərazini əhatə edir. Qurğunun tikintisi zamanı 150 min kubmetrə yaxın torpaq işləri görülüb, 650 tondan çox metal konstruksiyadan, 530 tondan çox borudan istifadə olunub.

tilen fraksiyaları "Azərikimya" İstehsalat Birliyinin müəssisələrində xammal kimi işlənəcək, əmtəə məhsulu kimi isə məişətdə və nəqliyyat vasitələrində istifadəsi üçün satışa çıxarılacaq.

**(davamı 2-ci səhifədə)**

# SƏMİMİ TƏBRİKLƏR

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Siz həmvətənləriniz arasında və xaricdə haqlı olaraq təcrübəli və uzaqgörən siyasi xadim, öz ölkəsinin həqiqi lideri kimi nüfuz qazanmısınız. Dövlətlərimiz arasında strateji tərəfdaşlığın möhkəmlənməsinə Sizin şəxsi töhfəniz əvəzsizdir.

Bizim aramızda yaranmış münasibətləri yüksək qiymətləndirirəm. Sizinlə konstruktiv dialoqun və sıx birgə işin davam edəcəyinə ümid bəsləyirəm.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi qəlbdən möhkəm cansağlığı, firavanlıq və dövləti fəaliyyətinizdə uğurlar arzulayıram. Ailənizə səmimi salamlarımı çatdırmağınızı xahiş edirəm.

*Hörmətlə,*

**Vladimir Putin**
**Rusiya Federasiyasının Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Əminəm ki, Sizin ali dövləti fəaliyyət sahəsində çoxillik təcrübəniz, xalqınızın rifahının yaxşılaşdırılmasına yönəlmiş gərgin səyləriniz bundan sonra da Azərbaycanın firavanlaşmasına və davamlı inkişafına sanballı töhfə verməkdə davam edəcək.

İnanıram ki, Astana ilə Bakı arasında çoxəsrlik ənənəvi dostluq münasibətləri qardaşcasına strateji tərəfdaşlıq əsasında, habelə ölkələrimizin xalqlarının rifahı naminə bundan sonra da dinamik şəkildə inkişaf edəcək.

Hörmətli İlham Heydər oğlu, fürsətdən istifadə edib Sizə möhkəm cansağlığı, tükənməz enerji, məsul dövləti vəzifənizdə yeni uğurlar, qardaş Azərbaycan xalqına sülh və firavanlıq diləyirəm.

*Ən xoş arzularla,*

**Nursultan Nazarbayev**
**Qazaxıstan Respublikasının Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm və ən xoş arzularımı bildirirəm.

Əsrlər boyu dilimizin və dinimizin, dəyərlərimizin, ənənələrimizin və mədəniyyətlərimizin ümumiliyi sayəsində birləşən xalqlarımız arasında dostluq münasibətlərinin möhkəmlənməsinə Sizin sanballı töhfənizi yüksək qiymətləndirirəm.

Məmnuniyyətlə vurğulamaq istəyirəm ki, son illərdə Özbəkistanla Azərbaycan arasında qarşılıqlı faydalı əməkdaşlığa, etimada və hörmətə əsaslanan strateji tərəfdaşlıq münasibətləri bütün sahələrdə ardıcıl olaraq inkişaf edir.

Əminəm ki, qarşıdakı yüksək səviyyəli səfərlər mübadiləsi və səmərəli danışıqlar bizim əməkdaşlığı məzmunca zənginləşdirəcək və yüksək səviyyəyə çatdıracaq.

Hörmətli İlham Heydər oğlu, icazə verin bu fərəhli gündə Sizə uzun ömür, möhkəm cansağlığı, ailə səadəti, habelə ölkənizin firavanlığının və inkişafının təmin edilməsinə yönəlmiş fədakar və genişmiqyaslı fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və tərəqqi arzularımı bildirim.

*Hörmətlə,*

**Şavkat Mirziyoyev**
**Özbəkistan Respublikasının Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan Respublikasının Prezidenti vəzifəsində çoxşaxəli fəaliyyətiniz Sizə, haqlı olaraq, həm öz ölkənizdə, həm də onun hüdudlarından uzaqlarda hörmət qazandırıb.

Birgə səylərimiz sayəsində biz ölkələrimizin qarşılıqlı faydalı münasibətlərində nəzərəçarpacaq nəticələrə nail olmuşuq.

Fürsətdən istifadə edib əmin olduğumu bildirirəm ki, Tacikistan ilə Azərbaycan arasında dostluq və qarşılıqlı anlaşma ənənələrinə əsaslanan çoxşaxəli əməkdaşlıq münasibətləri xalqlarımızın köklü mənafelərinə uyğun olaraq bundan sonra da möhkəmlənəcək və inkişaf edəcək.

Əziz dostum, Sizə səmimi qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq, qardaş Azərbaycanın çiçəklənməsi naminə ali dövləti fəaliyyətinizdə böyük uğurlar arzu edirəm.

*Hörmətlə,*

**Emoməli Rəhmon**
**Tacikistan Respublikasının Prezidenti**

# Binəqədi Rayon Məhkəməsinin yeni inzibati binasının açılışı olub

## *Prezident İlham Əliyev açılışda iştirak edib*

**Dekabrın 21-də Binəqədi Rayon Məhkəməsinin yeni inzibati binasının açılışı olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Ədliyyə naziri Fikrət Məmmədov dövlətimizin başçısına Azərbaycan Hökumətinin Dünya Bankı ilə birgə maliyyələşdirdiyi və Ədliyyə Nazirliyinin həyata keçirdiyi “Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu” layihəsi çərçivəsində istifadəyə verilən və tikintisi aparılan müasir məhkəmə bina və kompleksləri barədə məlumat verdi.

Prezident İlham Əliyev binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Son illərdə ölkəmizdə 16 yeni müasir məhkəmə binası tikilib, beşinin inşası isə davam etdirilir. İndiyədək Prezident İlham Əliyev paytaxtın Sabunçu, Yasamal, Nərimanov, habelə Şəki, Oğuz rayon məhkəmələri binalarının açılışında iştirak edib, İmişli rayon məhkəməsində yaradılan şəraitlə tanış olub.









Dövlət büdcəsinin vəsaiti hesabına tikilən Binəqədi Rayon Məhkəməsinin yeni binasının inşası da müasir standartlara uyğun və yüksək keyfiyyətlə aparılıb. BMT-nin Əlillərin Hüquqları Haqqında Konvensiyasına uyğun olaraq binada əlillərin sərbəst hərəkəti üçün də bütün şərait var. Binəqədi Rayon Məhkəməsi təxminən 265 minə yaxın əhaliyə xidmət edir. Burada 80 nəfərdən çox, o cümlədən 19 hakim, 60 nəfər məhkəmə aparatı işçisi çalışacaq. Binada ümumilikdə 12 məhkəmə iclas zalı fəaliyyət göstərir. Azərbaycan Prezidentinin “Elektron məhkəmə” informasiya sisteminin yaradılması haqqında Sərəncamının icrası çərçivəsində burada “elektron məhkəmə” və “elektron icra” informasiya sistemlərinin tətbiq olunması üçün bütün zəruri infrastruktur yaradılıb və bina müasir İKT avadanlığı ilə təchiz olunub. Məhkəmə zallarında proseslərin daha dəqiq və sürətlə protokollaşdırılmasına xidmət edən, audio-video yazılışları aparan “Femida” sistemi, videokonfransların, təqdimatların keçirilməsi, elektron sənəd dövriyyəsi və məhkəmə işlərinin idarəetmə sistemi üçün qurğular quraşdırılıb. Təqsirləndirilən şəxslər zalda beynəlxalq standartlara uyğun xüsusi ayrılan şüşə otaqda saxlanılır. Burada onların vəkillə birbaşa əlaqə saxlamaları üçün müvafiq qurğular var.





Binəqədi Rayon Məhkəməsi də inzibati və ictimai zonalara bölünür. Hər iki zonanın girişi ayrıdır. İnzibati zona hakimlər və məhkəmə işçiləri, ictimai zona isə vətəndaşlar üçündür. İctimai zonada vəkillər, dövlət ittihamçıları, icra məmurları və Ədliyyə Nazirliyinin icra şöbəsinin əməkdaşları üçün otaqlar var. Binada hakimlər və vətəndaşlar arasında qeyri-prosessual münasibətlər məhdudlaşdırılır və onlar yalnız iclas zallarında görüşürlər. Bu isə şəffaflığın təmin edilməsində mühüm amildir. Binada vətəndaşların müraciət imkanlarının asanlaşdırılması və onların məlumatlılığının təmin edilməsi məqsədilə məlumat nöqtələri, habelə müasir elektron informasiya daşıyıcıları, o cümlədən köşklər, lövhələr quraşdırılıb ki, bu da vətəndaşlara məhkəmə prosesləri və onların tarixi, vaxtı, məhkəmə zalı, hakimlər və digər məsələlərlə bağlı informasiyanı rahat əldə etməyə imkan yaradır. Bununla yanaşı, binada arxiv, maddi sübutların saxlanılması, vətəndaşların qəbulu, təqsirləndirilən şəxslərin vəkillə görüşü, dövlət ittihamçıları üçün otaqlar və tibb məntəqəsi mövcuddur. Konfrans zalında həm beynəlxalq, həm də ölkə səviyyəsində tədbirlər keçirmək mümkündür. Həmçinin hakimlərə və məhkəmə işçilərinə Ədliyyə Nazirliyinin iclaslarına, müşavirə və toplantılarına, eləcə də Ali Məhkəmənin Plenumuna birbaşa qoşulmaq imkanı yaradılıb. Zalda tədris kurslarının keçirilməsi üçün də zəruri infrastruktur var. Buradakı kitabxana məhkəmə-hüquq sahəsinə aid ədəbiyyatla, Azərbaycan həqiqətlərini əks etdirən kitablarla zəngindir.

Ədliyyə və məhkəmə sahəsində tətbiq olunan innovasiyalarla tanış olan Prezident İlham Əliyevə notariat hərəkətlərinin rəsmiləşdirilməsində tətbiq olunan rəqəmsal texnologiyalar, o cümlədən notariat ofislərini vahid şəbəkədə birləşdirən “Elektron notariat” informasiya sistemi barədə məlumat verildi. Dövlətimizin başçısının qanunvericilik təşəbbüsü ilə qəbul edilmiş və Azərbaycan ədliyyəsinin 100 illik yubileyi ərəfəsində qüvvəyə minən “Notariat haqqında” Qanuna edilən əsaslı dəyişikliklərin daha müasir texnologiyaların və innovasiyaların tətbiqinə geniş imkan yaratdığı qeyd olundu.

Sonra səyyar notariat çantası, elektron ədliyyə köşkü və mobil notariat qovluğu nümayiş etdirildi.

Bildirildi ki, səyyar xidmətlərə tələbatın artması ilə əlaqədar və əhalinin məmnunluğunun təmin edilməsi üçün müasir avadanlıqla təchiz olunan “Elektron notariat” informasiya sisteminə birbaşa çıxışı olan xüsusi çanta hazırlanıb. Notariuslar həmin çantalarla hər hansı məkana bağlı olmadan fiziki və hüquqi şəxslərə bütün növ notariat hərəkətləri üzrə səyyar xidmət göstərə bilərlər. Eyni zamanda, yeni qanuna əsasən məsafədən xidmətlərin göstərilməsini mümkün edən elektron ədliyyə köşkü də yaradılıb.

**(davamı 3-cü səhifədə)**

# Prezident İlham Əliyev Bakı neft emalı zavodunda bitum qurğusunun və maye qazdoldurma məntəqəsinin açılışında iştirak edib

**(əvvəli 1-ci səhifədə)**

Prezident İlham Əliyevə Heydər Əliyev adına neft emalı zavodunda aparılan yenidənqurma və modernləşdirmə layihəsi barədə məlumat verildi. Ulu Öndərin adını daşıyan neft emalı zavodunun modernləşdirmə layihəsi tarixi əhəmiyyətə malikdir. Layihə tamamlandıqdan sonra bu zavod ölkəmizi yüksək keyfiyyətli yanacaqla təmin edəcək, Azərbaycanın ixrac potensialını artıracaq və ölkəmizin regiondakı mövqeyinin daha da möhkəmlənməsinə xidmət göstərəcək. Artıq bu mühüm və tarixi layihənin ilkin mərhələsi tamamlanıb. Modernləşdirmə layihəsinin yekunlaşan birinci mərhələsi üç əsas hissədən ibarətdir. Bu hissələrə yeni bitum qurğusu ilə yanaşı, maye qazdoldurma stansiyası və sonrakı mərhələlərdə tikilməsi nəzərdə tutulan qurğuların yerləşəcəyi ərazilərdə söküntü və təmizləmə işlərinin aparılaraq inşaat üçün hazırlanması daxildir.

Sonrakı mərhələlərdə tikilməsi nəzərdə tutulan 8 əsas qurğunun yerinin köhnə qurğulardan təmizlənməsi, modernləşdirmənin ümumi gedişatı üçün mühüm məsələ olan torpaq tədqiqat işlərinin görülməsi və ərazinin tikinti-quraşdırma üçün hazırlanması da artıq öz həllini tapıb.



Heydər Əliyev adına neft emalı zavodunda yenidənqurma işləri 3 mərhələdə icra olunur. Layihənin 2020-ci ilin sonunadək planlaşdırılan ikinci mərhələsində AVRO-5 keyfiyyət standartına cavab verən dizel yanacağının alınması, 2021-ci ilin birinci yarısına nəzərdə tutulan üçüncü mərhələdə isə eyni keyfiyyət standartına cavab verən A-92, 95 və 98 benzin məhsullarının istehsalı üçün müvafiq yeni qurğuların inşası həyata keçiriləcək. Aparılacaq işlər zavodun illik emal gücünü 7,5 milyon tona çatdırmaqla “Azərikimya” İstehsalat Birliyinin xammalla təchizatının sabit şəkildə təmin edilməsinə imkan verəcək. Zavodda aparılan yenidənqurma işləri daxili bazarın yüksək keyfiyyətli yanacağa olan tələbatını tam ödəyəcək, bununla yanaşı, Bakıda karbon emissiyasının miqdarının azalmasına, ekoloji vəziyyətin yaxşılaşdırılmasına mühüm töhfə verəcək.



Prezident İlham Əliyev yeni bitum qurğusunu işə saldı.

Yeni qurğu enerjiyə daha çox qənaət etməklə, ekoloji durumun yaxşılaşdırılmasına, zavodun istismar xərclərinin optimallaşdırılmasına mühüm töhfə verəcək. Bu qurğunun istismara verilməsi nəticəsində əsasən yol inşaatında istifadə olunan asfalt-bitum maddəsinin keyfiyyəti yüksələcək. Asfalt örtüyünün mühüm tərkib hissəsi olan bitum dünyada həm də boya və mürəkkəb istehsalında, kabel, boru, dam və digər səthlərin izolyasiya və germetikliyinin təmin edilməsində, müxtəlif inşaat işlərində istifadə olunur.

AZƏRTAC

# Binəqədi Rayon Məhkəməsinin yeni inzibati binasının açılışı olub

## *Prezident İlham Əliyev açılışda iştirak edib*

**(əvvəli 2-ci səhifədə)**

Belə ki, təxirə salınmadan ədliyyə xidmətlərinə ehtiyac yarandığı yerlərdə, o cümlədən sərhəddə, hava və dəniz limanlarında, dəmir yolu vağzallarında quraşdırılacaq həmin köşklər notariuslarla videoəlaqə vasitəsilə notariat hərəkətinin rəsmiləşdirilməsinə və sənədlərin bilavasitə yerində əldə edilməsinə şərait yaradacaq. Həftənin bütün günləri 24 saat fəaliyyət göstərən bu innovativ qurğudan istifadə edərək borca görə ölkədən çıxışına məhdudiyyət qoyulmuş şəxslər ödənişləri həyata keçirə və məhdudiyyəti avtomatlaşdırılmış qaydada aradan qaldıra bilərlər. Dünya təcrübəsində rast gəlinməyən və Azərbaycan məhsulu olan mobil notariat qovluğunun tətbiqi nəticəsində istənilən şəxs ətrafında olan bütün notariat ofisləri və notariuslar, həmçinin notariat hərəkətlərinin rəsmiləşdirilməsi üçün ödənilməli rüsum və haqqın məbləğləri, tələb olunan sənədlər və notariat hərəkətinin aparılmasında iştirak etməli şəxslər barədə məlumat alacaq. Funksiyanın əsas özəlliyi isə şəxsin iştirakçısı olduğu bütün notariat hərəkətləri ilə bağlı sənədlərin vahid mənbədə - mobil telefonda saxlanılması, istənilən vaxt elektron versiyadan istifadə etməsi, eləcə də sənədin qüvvədən düşməsi barədə məlumatı dərhal almasıdır.



Dövlətimizin başçısına cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il fevralın 10-da imzalanan Sərəncamın icrası üzrə görülən işlər barədə də məlumat verildi, azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasında tətbiq olunan elektron nəzarət qurğuları, o cümlədən elektron qolbaqlar nümayiş etdirildi. Hazırda bütün ölkə üzrə 460-dan çox məhkuma elektron nəzarət olunur. Sərəncama əsasən ictimai işlərin formal icrasının qarşısının alınması, bu sahədə fəaliyyətin səmərəli təşkili ilə bağlı tədbirlər həyata keçirilir.

Son illərdə Azərbaycanda məhkəmə sistemində tətbiq edilən yeniliklər beynəlxalq aləmdə təqdir olunur. Bununla əlaqədar ötən il Azərbaycan Avropa Şurasının “Ədliyyənin Kristal Tərəzisi” mükafatına layiq görülüb. Bu il isə Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının prezidenti vəzifəsinə seçkilər keçirilib. Seçkilər quruma üzv 47 dövlətin nümayəndəsi tərəfindən gizli səsvermə yolu ilə aparılıb və Avropa Şurası tarixində ilk dəfə olaraq bu vəzifəyə Azərbaycan təmsilçisi seçilib.

Qurumun yeni rəhbəri, hakim Ramin Qurbanov Prezident İlham Əliyev ilə görüşdü.

Qeyd edək ki, Avropa Şurasında belə yüksək vəzifəyə seçkilərdə nailiyyətin əldə edilməsində dövlətimizin başçısının uğurlu xarici siyasəti və ölkədə aparılan mütərəqqi məhkəmə-hüquq islahatları əhəmiyyətli rol oynayıb.

**AZƏRTAC**



---

## Azərbaycan Respublikasında 2019-cu il üçün ehtiyac meyarının həddi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1. Ehtiyac meyarının həddi**

Ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə 2019-cu il üçün ehtiyac meyarının həddi 143 manat məbləğində təsdiq edilsin.

**Maddə 2. Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2019-cu il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 30 noyabr 2018-ci il.**

---

## G.B.İslamovun Bakı şəhəri Xəzər Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin İİ hissəsini rəhbər tutaraq **qərara alıram:**

Gülağa Bayram oğlu İslamov Bakı şəhəri Xəzər Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 21 dekabr 2018-ci il.**

---

## Ş.F.Babayevin Naxçıvan Muxtar Respublikasının Culfa Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Şükür Fərəməz oğlu Babayev Naxçıvan Muxtar Respublikasının Culfa Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 21 dekabr 2018-ci il.**

---

## Apellyasiya instansiyası məhkəmələri sədrlərinin müavinlərinin və məhkəmə kollegiyaları sədrlərinin təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Aşağıdakı şəxslər Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin məhkəmə kollegiyalarının sədrləri təyin edilsinlər:

Allahverdiyev Əli Kərim oğlu -Mülki Kollegiyanın sədri

Qurbanov Yusifəli Süleyman oğlu -İnzibati-İqtisadi Kollegiyanın sədri

Mirzəyev İlqar Məhərrəm oğlu -Cinayət Kollegiyasının sədri

Quliyev Vüqar Kərim oğlu -Hərbi Kollegiyanın sədri

**2.** Aşağıdakı şəxslər apellyasiya məhkəmələri sədrlərinin müavinləri və məhkəmə kollegiyalarının sədrləri təyin edilsinlər:

**Bakı Apellyasiya Məhkəməsi üzrə:**

Abiyeva Kəmalə Nəbi qızı -sədrin müavini

Məmmədov Məmməd Allahverdi oğlu -Mülki Kollegiyanın sədri

Məmmədov Vidadi Məmməd oğlu -İnzibati-İqtisadi Kollegiyanın sədri

Səfərov Rizvan Kamal oğlu -Cinayət Kollegiyasının sədri

Qasımov Faiq Adil oğlu -Hərbi Kollegiyanın sədri

**Gəncə Apellyasiya Məhkəməsi üzrə:**

Quliyev Nuru Nadir oğlu -sədrin müavini

Muradov Rəhman Şaban oğlu -Mülki Kollegiyanın sədri

Mamedov Rəşad Ziyaviddin oğlu -İnzibati-İqtisadi Kollegiyanın sədri

Muxtarov Teyyub Asif oğlu -Cinayət Kollegiyasının sədri

Hüseynov Salman Bilal oğlu -Hərbi Kollegiyanın sədri

**Sumqayıt Apellyasiya Məhkəməsi üzrə:**

Mövsümov Nazim Rasim oğlu -sədrin müavini

Abbasov Aqil Əzizağa oğlu -Mülki Kollegiyanın sədri

Nəsibov Nazim Məcid oğlu -İnzibati-İqtisadi Kollegiyanın sədri

Cəfərov Vidadi Cəfər oğlu -Cinayət Kollegiyasının sədri

Zeynallı Fərmayıl Gülmalı oğlu -Hərbi Kollegiyanın sədri

**Şirvan Apellyasiya Məhkəməsi üzrə:**

Novruzov Ələsgər Əli İskəndər oğlu -sədrin müavini

Babayev Zəki Baba oğlu -Mülki Kollegiyanın sədri

Həsənov Müşfiq Kamil oğlu -İnzibati-İqtisadi Kollegiyanın sədri

Camalov Etibar Əli oğlu -Cinayət Kollegiyasının sədri

Cəfərov Rafiq Musa oğlu -Hərbi Kollegiyanın sədri

**Şəki Apellyasiya Məhkəməsi üzrə:**

Hüseynov Mirbahəddin Mirdamət oğlu -sədrin müavini

Məcidov Ələddin Tofiq oğlu -Mülki Kollegiyanın sədri

Abbasov Gündüz Qasım oğlu -İnzibati-İqtisadi Kollegiyanın sədri

Eyvazov Akif Məhərləm oğlu -Cinayət Kollegiyasının sədri

Hüseynov Elçin Şirin oğlu -Hərbi Kollegiyanın sədri

**3.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 21 dekabr 2018-ci il.**

---

## Bir sıra birinci instansiya məhkəmələri sədrlərinin və Bakı Ağır Cinayətlər Məhkəməsi sədrinin müavininin təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Hicran Xasay oğlu Muradov Naxçıvan Muxtar Respublikası İnzibati-İqtisadi Məhkəməsinin sədri təyin edilsin.

**2.** Natiq Mürsəl oğlu Əliyev Gəncə Ağır Cinayətlər Məhkəməsinin sədri təyin edilsin.

**3.** Əfqan Niyətulla oğlu Hacıyev Bakı Ağır Cinayətlər Məhkəməsi sədrinin müavini təyin edilsin.

**4.** Aşağıdakı şəxslər Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələrinin sədrləri təyin edilsinlər:

Əliyev Zamiq Xudaverdi oğlu -Babək Rayon Məhkəməsinin sədri

Məmmədov Mehrab Fərmayıl oğlu -Culfa Rayon Məhkəməsinin sədri

Əhmədov Zülfüqar Əziz oğlu -Kəngərli Rayon Məhkəməsinin sədri

Haqverdiyev Tural Ziyat oğlu -Ordubad Rayon Məhkəməsinin sədri

Zülfüqarov Hüseyn Nadir oğlu -Sədərək Rayon Məhkəməsinin sədri

Əliyev Mehdi Ədalət oğlu -Şərur Rayon Məhkəməsinin sədri

**5.** Aşağıdakı şəxslər Bakı şəhərinin rayon məhkəmələrinin sədrləri təyin edilsinlər:

Tağıyev Nazim Hüsü oğlu - Bakı şəhəri Xətai Rayon Məhkəməsinin sədri

Əliyev Kəramət Fətəli oğlu - Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin sədri

**6.** Aşağıdakı şəxslər rayon (şəhər) məhkəmələrinin sədrləri təyin edilsinlər:

Əliyev Rəfayil Əfraddin oğlu -Biləsuvar Rayon Məhkəməsinin sədri

Kazımov Marif Sabir oğlu-Gədəbəy Rayon Məhkəməsinin sədri

Əliyev Abbas Baba oğlu -Qəbələ Rayon Məhkəməsinin sədri

Süleymanov Kamran Şakir oğlu-Oğuz Rayon Məhkəməsinin sədri

Məmmədov Elbrus Hacıbala oğlu -Zaqatala Rayon Məhkəməsinin sədri

İmanova Gülsarə Kərimovna -Zəngilan Rayon Məhkəməsinin sədri

**7.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 21 dekabr 2018-ci il.**

---

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Bu gün Azərbaycan Respublikası Sizin rəhbərliyinizlə inkişaf edən ölkənin gələcək tərəqqisi və Azərbaycan xalqının həyatının yaxşılaşdırılması yolunda inamlı addımlar atır.

Qəti əminəm ki, Qırğız Respublikası ilə Azərbaycan Respublikası arasında çoxəsrlik dostluq və qardaşlıq münasibətləri Sizin dəstəyiniz sayəsində bundan sonra da möhkəmlənəcək, hər iki ölkənin inkişafına və firavanlaşmasına kömək edəcək.

Sizə möhkəm cansağlığı, uzun ömür, ali dövləti fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

**Sooronbay Jeenbekov**
**Qırğız Respublikasının Prezidenti**

---

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə Sizi Rusiya Federasiyasının Hökuməti adından və şəxsən öz adımdan təbrik edirəm.

Rusiya Federasiyası ilə Azərbaycan Respublikasını bir-birinə bağlayan mehriban qonşuluq, dostluq və tərəfdaşlıq münasibətlərinin möhkəmlənməsinə Sizin sanballı şəxsi töhfənizi xüsusi qeyd etmək istəyirəm. Qarşılıqlı ticari-iqtisadi və investisiya əlaqələri durmadan inkişaf edir, energetika, sənaye, infrastruktur, elm və mədəniyyət sahələrində perspektivli birgə layihələr həyata keçirilir.

Əminəm ki, praktiki kooperasiyanın daha da genişlənməsi, qarşılıqlı faydalı yeni təşəbbüslərin inkişaf etdirilməsi hər iki ölkənin maraqlarına tamamilə uyğundur.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, firavanlıq və ali dövləti fəaliyyətinizdə yeni uğurlar arzu edirəm.

*Hörmətlə,*

**Dmitri Medvedev**
**Rusiya Federasiyası Hökumətinin sədri**

---

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Siz uğurlara imza atmış bir dövlət xadimi kimi Azərbaycan Respublikasında sabitliyin və firavanlığın qarantısınız.

Sizin müdrikliyiniz, uzaqgörənliyiniz və geniş dünyagörüşünüz sayəsində bu gün Azərbaycan Respublikası dinamik inkişaf edən bir dövlətdir.

Əminəm ki, Rusiya Federasiyasının Dağıstan Respublikası ilə Azərbaycan Respublikası arasında çoxəsrlik dostluq tellərinə və qarşılıqlı hörmətə əsaslanan səmimi və mehriban qonşuluq münasibətləri xalqlarımızın mənafeyi naminə bundan sonra da genişlənəcək.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, firavanlıq, Azərbaycan Respublikasının rifahı naminə qarşıya qoyduğunuz məqsədlərə nail olmaqda yeni uğurlar diləyirəm.

*Hörmətlə,*

**Vladimir Vasilyev**
**Rusiya Federasiyası Dağıstan Respublikasının rəhbəri**

---

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Bu gün Azərbaycan Sizin müdrik rəhbərliyinizlə cəmiyyətin həyatının bütün sahələrinin müasirləşdirilməsi yolunda ardıcıl və dinamik surətdə irəliləyir. Sizin zəngin siyasi təcrübəniz və yüksək peşəkarlığınız Azərbaycan xalqının rifahının yüksəldilməsi naminə mürəkkəb məsələləri qətiyyətlə və ardıcıl olaraq həll etməyə imkan verir. Sizin dünya miqyasında yeritdiyiniz uzaqgörən və praqmatik siyasətiniz, ölkənin milli mənafelərini qətiyyətlə qorumaq və müdafiə etməkdə xüsusi bacarığınız sayəsində Azərbaycan regional və beynəlxalq gündəlikdə olan ən mühüm məsələlərin həllində fəal rol oynayır.

2018-ci il dekabrın 31-də mənim Baş katib vəzifəsində səlahiyyət müddətim başa çatır. Bununla əlaqədar, Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) işlərinə daimi və səmimi diqqətinizə görə Sizə ürəkdən minnətdarlığımı bildirmək istəyirəm. Əminəm ki, Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatının fəaliyyətində iştirakı mühüm regional və beynəlxalq problemlər üzrə Bakı ilə ŞƏT arasında konstruktiv əməkdaşlığın təşəkkülü və inkişafı üçün geniş imkanlar açacaq.

İcazə verin, fürsətdən istifadə edərək Sizə qarşıdan gələn yeni, 2019-cu il münasibətilə təbriklərimi, möhkəm cansağlığı və Azərbaycan Respublikasının rifahı naminə daha böyük nailiyyətlər arzularımı bildirim.

*Dərin hörmətlə,*

**Rəşid Alimov**
**Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi**

---

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Siz, nadir siyasi uzaqgörənliyə, zəngin təcrübəyə və rəhbərlik istedadına malik olmaqla, həyatınızı dövlətə xidmətə, onun təsisatlarının təkmilləşdirilməsinə, iqtisadiyyatın inkişafı və sosial rifahın təmin olunmasına həsr etmisiniz. Sizin səylərinizlə ölkəyə xarici investisiyaların cəlb edilməsi üçün möhkəm təməl yaradılıb. Bu gün biz həmin çoxillik işin nəticələrini görürük, dünyada siyasi və iqtisadi vəziyyətin heç də sadə olmaması fonunda Azərbaycan davamlı irəliləyiş nümayiş etdirir.

İcazə verin, LUKOYL şirkətinin Azərbaycan Respublikasında fəaliyyətinə göstərdiyiniz daimi diqqət və dəstəyə görə Sizə dərin təşəkkürümü bildirim. Sizi əmin etmək istəyirəm ki, biz qarşımıza qoyulmuş bütün vəzifələri fəal surətdə yerinə yetirməkdə davam etməyə və birgə layihələr üzrə əməkdaşlığı inkişaf etdirməyə hazırıq.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi qəlbdən möhkəm cansağlığı, tükənməz enerji, firavanlıq, əmin-amanlıq və Azərbaycanın rifahı naminə çoxşaxəli fəaliyyətinizdə yeni böyük uğurlar diləyirəm.

*Hörmətlə,*

**Vahid Ələkbərov**
**“LUKOYL” neft şirkətinin prezidenti**

---

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri, hörmətli Prezidentimiz.

Doğum gününüz münasibətilə Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfi adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi çatdırıram.

Sizə və ailənizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Azərbaycanın rifahı naminə yorulmaz fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.

Zati-alinizi doğum gününüz münasibətilə bir daha təbrik edir və ən dərin ehtiramlarımı çatdırıram.

*Dərin hörmətlə,*

**Akkan Suver**
**Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri**

## Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi və bəzi birinci instansiya məhkəmələri hakimlərinin vəzifələrinin dəyişdirilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü və 96-cı maddələrinə uyğun olaraq aşağıdakı şəxslər birinci instansiya məhkəmələrinin hakimləri təyin edilsinlər:

**Ağır cinayətlər məhkəmələri üzrə:**

*Bakı Ağır Cinayətlər Məhkəməsi*
Hüseynov Səbuhi Sabir oğlu
Hüseynov Telman Qulaməli oğlu
Qəniyev Faiq Əsəd oğlu
Məmmədov Əli İrfan oğlu
*Gəncə Ağır Cinayətlər Məhkəməsi*
Bağırov Məhəmməd Ənvər oğlu
Əliyev Nural Turab oğlu
Rüstəmov Elmin İltizam oğlu
Səmədov Xəqani Hacı oğlu
*Lənkəran Ağır Cinayətlər Məhkəməsi*
Abdullayev İlkin Qismət oğlu
Məmmədov Müşfiq Vaqif oğlu
Musayev Aqil Əlisa oğlu
*Şəki Ağır Cinayətlər Məhkəməsi*
Məmmədov Bilal Mahir oğlu
Mirzəyev Nahid Namiq oğlu

**İnzibati-iqtisadi məhkəmələr üzrə:**

*1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi*
Əliyev Elvin Əhəd oğlu
Mədətli Fərid İlham oğlu
Nuriyeva Səbinə Vidadi qızı
Oruczadə Aytən Pənah qızı
Süleymanova Şəhla Ənvər qızı
*2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi*
Daşdəmirov Rauf Məhərrəməli oğlu
Ələkbərov Əfqan Qəzənfər oğlu
Əliyeva Leyla Rauf qızı
Mustafayev Etibar Mustafa oğlu
Tağıyev Zaur Müzəffər oğlu
*Gəncə İnzibati-İqtisadi Məhkəməsi*
İsgəndərova Aygül Vulqar qızı
Vəliyev Kənan Hafiz oğlu
*Sumqayıt İnzibati-İqtisadi Məhkəməsi*
Əzizova Vəfa Ehtiram qızı
Məmmədov Zahid Tahir oğlu
*Şirvan İnzibati-İqtisadi Məhkəməsi*
Allahyarov Zaur Mirzağa oğlu
Həsənov Samir Firdusi oğlu
İsmayılov Orxan Nadir oğlu
İsmayılov Rafiq Tofiq oğlu
*Şəki İnzibati-İqtisadi Məhkəməsi*
Cabbarov İlqar Hidayət oğlu
Məcidov Rüfət Azadəli oğlu

**Hərbi məhkəmələr üzrə:**

*Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi*
Hüseynov Səxavət Səməd oğlu
Salmanov Elşən Fizuli oğlu
*Gəncə Hərbi Məhkəməsi*
Hüseynli Nurəddin Nizami oğlu
Muxtarov Kamran Nüsrət oğlu
*Tərtər Hərbi Məhkəməsi*
Əzizov Sevindik Əziz oğlu

**Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri üzrə:**

*Naxçıvan Şəhər Məhkəməsi*
Hüseynov Elnur Heydər oğlu
Səfərəliyeva Gülnar Xanlar qızı
*Babək Rayon Məhkəməsi*
Əliyev Zamiq Xudaverdi oğlu
Səfərov Daşqın Yaqub oğlu
*Culfa Rayon Məhkəməsi*
Məmmədov Mehrab Fərmayıl oğlu
*Ordubad Rayon Məhkəməsi*
Haqverdiyev Tural Ziyat oğlu
*Şərur Rayon Məhkəməsi*
Əliyev Mehdi Ədalət oğlu
Qarayev Seymur Əlfəddin oğlu

**Bakı şəhərinin rayon məhkəmələri üzrə:**

*Bakı şəhəri Binəqədi Rayon Məhkəməsi*
Abbasova Günel Məhərrəm qızı
Abdıyev Fuad Vilayət oğlu
Ağayev Elçin Zəkəriyə oğlu
Əliyev İlkin Əli oğlu
Əmirəliyev Fərid Mübariz oğlu
Hətəmzadə Fərid Eldar oğlu
Qasımov Fərrux Hüseynağa oğlu
Nəbizadə Nigar Xeyrulla qızı
Rüstəmli Məhəmməd Əli oğlu
Tağıyev Vüsal Adıgözəl oğlu
*Bakı şəhəri Xətai Rayon Məhkəməsi*
Abbasova Əminə Rauf qızı
Əliyev Şəhriyar İbrahim oğlu
Həsənova Aygün Namiq qızı
Hüseyn Cavid Vaqif oğlu
Misirzadə Namidar Əlöysət oğlu
Rəhimli Lalə Elxan qızı
Tağıyev Nazim Hüsü oğlu
Yaqubov Fərid Murtuza oğlu
Zamanlı Pərviz Mirsiyaf oğlu
*Bakı şəhəri Xəzər Rayon Məhkəməsi*
Axundova Zeynəb Əli qızı
Bəhrəmzadə Sabit Xanlar oğlu
Hüseynli Hüseyn İnanc oğlu
Xəzri Ramilə Həşim qızı
Məmmədli Emin İlham oğlu
*Bakı şəhəri Qaradağ Rayon Məhkəməsi*
Əhmədova Gülnar İnqilab qızı
Əsədov Kamran Bağır oğlu
Həsənov İslam Telman oğlu
Həşimova Günay Rövşən qızı
*Bakı şəhəri Nərimanov Rayon Məhkəməsi*
Ədilova Solmaz İmran qızı
Ələkbərov Tural Mehman oğlu
Kamranov Hafiz Eldar oğlu
Quliyev Ramin Nizaməddin oğlu
Quliyev Vüqar Şahbaz oğlu
Qurbanov Vüsal Rafiq oğlu
Novruzova Aytən Nazim qızı
*Bakı şəhəri Nəsimi Rayon Məhkəməsi*
Cəfərov Səməd Fəxrəddin oğlu
Hüseynov Elməddin Mirpaşa oğlu
Hüseynov Pərviz Aktiv oğlu
Xəlilov Ramin Adilxan oğlu
Musayeva Cəmilə Ceyhun qızı
Mustafayeva Solmaz Rafael qızı
Pənahov Babək Əkbər oğlu
Səmədov Rəşid Əfraim oğlu
Tağıyev Azər Heydər oğlu
Tağıyev Ceyhun Əlikram oğlu
*Bakı şəhəri Nizami Rayon Məhkəməsi*
Əhmədova Həqiqət Mülazim qızı
Qasımov Babək Natiq oğlu
Mehdiyev Nəriman Hüseynqulu oğlu
*Bakı şəhəri Sabunçu Rayon Məhkəməsi*
Hacıyev Zaur Arif oğlu
Paşayeva Adilə Adil qızı
Talıbov Samir Şahin oğlu
*Bakı şəhəri Səbail Rayon Məhkəməsi*
Əliyeva Aytən Heydər qızı
Qafarova Rəna Nazim qızı
Rüstəmli İlkin Şahin oğlu
Şükürova Ülviyyə Sahib qızı
Tağıyev Azər Ramiz oğlu
Tanrıverdiyev Anar Vəzir oğlu
*Bakı şəhəri Suraxanı Rayon Məhkəməsi*
Mahmudova Təranə Nəriman qızı
Məmmədov Tural Nurulla oğlu
Miriyeva Səlimə Miri qızı
Nuriyev Elnur Aləm oğlu
Rzayeva Nərminə Cahangir qızı
*Bakı şəhəri Yasamal Rayon Məhkəməsi*
Axundov Toğrul Bəhruz oğlu
Axundova Günay Təyar qızı
Cavadzadə Rəşad Bəylər oğlu
Əkbərli Günel Bəkir qızı
Əyyubov Fərid İlham oğlu
Hacıyev Vahid Məcid oğlu
Qurbanov Ramin Afad oğlu
Məmmədli Orxan Qədir oğlu
Məmmədov Murad Akif oğlu

**Rayon (şəhər) məhkəmələri üzrə:**

*Abşeron Rayon Məhkəməsi*
Əhmədov Habil Yunis oğlu
*Ağdam Rayon Məhkəməsi*
Niftəliyev Mahir Şamil oğlu
*Ağdaş Rayon Məhkəməsi*
Əliyev Nizam Mubariz oğlu
*Ağstafa Rayon Məhkəməsi*
Rəsulov Zamiq Akif oğlu
*Bərdə Rayon Məhkəməsi*
Əbilov Qamət Mehman oğlu
Kərimov Əyyub Vaqif oğlu
*Biləsuvar Rayon Məhkəməsi*
Əhmədov Pərviz Tərlan oğlu
*Gədəbəy Rayon Məhkəməsi*
Mirzəquliyev Fizuli Balağa oğlu
*Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsi*
Hüseynov Zaur Nazim oğlu
Qocayev Tural Şəmsi oğlu
Mustafayev Rəşad Mustafa oğlu
Tağıyev Cavid Tahir oğlu
*Gəncə şəhəri Nizami Rayon Məhkəməsi*
Ələkbərli Roman Nəriman oğlu
Hünmətov Zaur Adil oğlu
Hüseynov Kənan Zakir oğlu
*Goranboy Rayon Məhkəməsi*
Mayılov Samir İlham oğlu
*Xaçmaz Rayon Məhkəməsi*
Xəlilov İlkin Ələkbər oğlu
Sadıqov Anar Böyükkişi oğlu
*İmişli Rayon Məhkəməsi*
Nüsrətov Tərlan Vaqif oğlu
Qəbələ Rayon Məhkəməsi
İsayev Elman Bəhruz oğlu
*Quba Rayon Məhkəməsi*
Həsənov Rahim Təşəkkül oğlu
*Lənkəran Rayon Məhkəməsi*
Məmmədov Rəşad Azad oğlu
Məmmədov Toğrul Məhəmməd oğlu
*Masallı Rayon Məhkəməsi*
Bəhmənov Habil Xanoğlan oğlu
Səlimov Ayaz Aydın oğlu
*Sumqayıt Şəhər Məhkəməsi*
Abdullayev Emin Ağamusa oğlu
Abıyev Nəriman İbrahim oğlu
Behbudova Aynur Mirzalı qızı
Hacıyev Pərviz Əhməd oğlu
Qoşqarlı Rəşad Nizami oğlu
Məmmədov Ceyhun Bəşir oğlu
Süleymanova Almaz Məhərrəm qızı
Tanrıverdiyeva Günel Cəbrayıl qızı
*Şəki Rayon Məhkəməsi*
Hacıyev Pərviz Vaqif oğlu
İmanov Cahid Fehruz oğlu
*Şəmkir Rayon Məhkəməsi*
Paşayev Nemət Şirkət oğlu
İmanov Zaman Şakir oğlu
*Tovuz Rayon Məhkəməsi*
Məmmədov Rəşad Seylan oğlu
*Yevlax Rayon Məhkəməsi*
Cavadova Günay İsmayıl qızı
Əlizadə Ruslan Əliyar oğlu
*Zaqatala Rayon Məhkəməsi*
Həsənov Tural Həsən oğlu
*Zəngilan Rayon Məhkəməsi*
İmanova Gülsarə Kərimovna

**2.** "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq aşağıdakı hakimlərin vəzifələri dəyişdirilsin:

Səxavət Şahhüseyn oğlu Bəylərli Babək Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

Siyavuş Həbib oğlu Hacıyev Bakı Hərbi Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

İlham Ağa oğlu Mahmudov Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

Natiq Mürsəl oğlu Əliyev Şəki Ağır Cinayətlər Məhkəməsinin hakimi və sədri vəzifəsindən azad edilərək Gəncə Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

Camal Cumar oğlu Ramazanov Şəki Ağır Cinayətlər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Hərbi Məhkəməsinin hakimi təyin edilsin;

Zülfüqar Əziz oğlu Əhmədov Sədərək Rayon Məhkəməsinin hakimi və sədri vəzifəsindən azad edilərək Kəngərli Rayon Məhkəməsinin hakimi təyin edilsin;

Hüseyn Nadir oğlu Zülfüqarov Şərur Rayon Məhkəməsinin hakimi və sədri vəzifəsindən azad edilərək Sədərək Rayon Məhkəməsinin hakimi təyin edilsin;

Səadət Rəşid qızı Səlimova Bakı şəhəri Xətai Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin hakimi təyin edilsin;

Sərdar Bəşərəddin oğlu Mehrəliyev Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı şəhəri Xətai Rayon Məhkəməsinin hakimi təyin edilsin;

Rəşad Məhəmməd oğlu Həsənov Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı şəhəri Nizami Rayon Məhkəməsinin hakimi təyin edilsin;

Mirheydər Seyidəmir oğlu Zeynalov Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin hakimi təyin edilsin;

Kəramət Fətəli oğlu Əliyev Gəncə Ağır Cinayətlər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin hakimi təyin edilsin;

Anar Adil oğlu Qasımov Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin hakimi təyin edilsin;

Leyla Oruc qızı Talıbova Bakı şəhəri Xətai Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin hakimi təyin edilsin;

Anar Firdovsi oğlu İbrahimov Xaçmaz Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin hakimi təyin edilsin;

Emin Əlixan oğlu Mehdiyev Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin hakimi təyin edilsin;

Vaqif İskəndər oğlu Həsənov Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Abşeron Rayon Məhkəməsinin hakimi təyin edilsin;

Zülfüqar Əhməd oğlu Sadiqov Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Abşeron Rayon Məhkəməsinin hakimi təyin edilsin;

Elman Tofiq oğlu Məmmədov Sumqayıt Şəhər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Abşeron Rayon Məhkəməsinin hakimi təyin edilsin;

Rəfayil Əfraddin oğlu Əliyev Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Biləsuvar Rayon Məhkəməsinin hakimi təyin edilsin;

Vladimir Yefimoviç Ruvinov Sumqayıt Şəhər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Xaçmaz Rayon Məhkəməsinin hakimi təyin edilsin;

Nemət Əlimusa oğlu Musayev Masallı Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Qazax Rayon Məhkəməsinin hakimi təyin edilsin;

Abbas Baba oğlu Əliyev Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Qəbələ Rayon Məhkəməsinin hakimi təyin edilsin;

İlqar Aslan oğlu Məmmədov Sumqayıt Şəhər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Quba Rayon Məhkəməsinin hakimi təyin edilsin;

Kamran Şakir oğlu Süleymanov Şəki Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Oğuz Rayon Məhkəməsinin hakimi təyin edilsin;

Ağarza Hacırza oğlu Səmədov Qazax Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Salyan Rayon Məhkəməsinin hakimi təyin edilsin;

Rövşən Elbrus oğlu Xəlilov Xaçmaz Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Sumqayıt Şəhər Məhkəməsinin hakimi vəzifəsinə təyin edilsin.

**3.** "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü və 112-ci maddələrinə uyğun olaraq Nurəddin Abuzər oğlu Bağırov Bakı şəhəri Səbail Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Sabirabad Rayon Məhkəməsinin hakimi təyin edilsin.

**4.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti.**

**Bakı şəhəri, 21 dekabr 2018-ci il.**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident.

Zati-alinizi doğum gününüz münasibətilə bütün Qafqaz dindarları adından təbrik etməkdən şərəf duyuruq. Azərbaycan xalqı və dövləti, bölgənin mənafeyi naminə fəaliyyətinizdə, həmçinin dünya miqyasında dəyər kəsb edən səy və əməllərinizdə Sizə Uca Yaradandan uğurlar diləyirik.

Zati-aliləri, Siz Azərbaycan xalqının XXI əsrdə əvəzsiz liderisiniz. Uca mənəviyyat yoluna sadiq şəxsiyyət olaraq, Siz dövlət başçısı məqamında xalqın mənafe və maraqlarını illərlə ən yüksək səviyyədə müdafiə edərək misilsiz uğurlara imza atmağa nail olmuş siyasi lidersiniz. Şükürlər olsun ki, ildən-ilə artan nüfuzunuzla bizləri daha artıq dərəcədə sevindirirsiniz. Zati-alinizin zamanın çağırışlarına, dünyamızın ehtiyac duyduğu məramlara cavab verən ideyalar irəli sürmək qüdrəti və qətiyyəti biz qafqazlılara qürur bəxş edir.

Möhtərəm cənab Prezident, elan etdiyiniz istər Multikulturalizm, istər İslam Həmrəyliyi illəri, müəllifi olduğunuz "Bakı Prosesi", habelə xeyir-duanızla uğurla fəaliyyətə başlamış Bakı Dinlər və Sivilizasiyalararası Beynəlxalq Əməkdaşlıq Mərkəzi ümumi, bəşəri məramlara xidmət edən səyləriniz sırasında önəmli yer tutur. Fəxrlə deyə bilərik ki, Azərbaycanın dünya miqyasında mədəniyyətlər, sivilizasiyalar, dinlər arasında dialoq prosesində bugünkü uğurları, aparıcı rolu Sizin siyasi iradə və qlobal təşəbbüslərinizdən qaynaqlanır. Biz, Qafqaz Xalqları Ali Dini Şurasının üzvləri Sizin müdrik qərar və təşəbbüslərinizin işığında bu ideyaları dünyanın nüfuzlu beynəlxalq tribunalarında təşviq edərkən irəli sürdüyünüz ideyaların mənəvi əzəmətinin həm müsəlmanlar, həm də qeyri-müsəlmanlar tərəfindən böyük ehtiram və dəstəklə qarşılandığının bilavasitə şahidi olur və bundan fəxarət duyuruq.

Zati-aliləri, dini və milli zəmində ekstremizmin, islamofobiya, antisemitizm, ksenofobiya təzahürlərinin tüğyan etdiyi bir vaxtda dünyanın ehtiyac duyduğu insan həmrəyliyinə aparan sülh və ədalət ideyalarının ətrafında cəm olmağa çağırmaqla, Siz dünyaya yeni siyasi mədəniyyət və uzaqgörənlik nümunəsi təqdim edirsiniz. Ümumbəşəri məramlara xidmət edən missiyanız sayəsində Azərbaycan dövləti dünyada gedən proseslərə özəl, dəyərli töhfələr verir.

Möhtərəm cənab Prezident, Azərbaycandakı din-dövlət münasibətlərinin yüksək səviyyəsinin təmini istiqamətində əməli addımlarınız, milli-mədəni irsin dirçəlişinə göstərdiyiniz maddi və mənəvi yardım nəinki ölkədə, Qafqaz bölgəsində, habelə dünyanın bir çox dövlətlərində dini abidələrə - məscidlərlə yanaşı, xristian və yəhudi dini məbədlərinə qayğı və himayəniz müdrik siyasətin nümunəsi kimi beynəlxalq aləmdə yüksək dəyərləndirilir.

Zati-aliləri, Sizin Qafqaz Xalqları Ali Dini Şurasının üzvləri ilə görüşləriniz dəyərli ənənə şəklini almışdır. Bu görüşlərin, qardaşlıq ünsiyyətlərimizin hər biri bizim üçün unudulmaz olub, özəl dəyər kəsb edir. Zati-alinizin müdrik din-dövlət siyasəti sayəsində xalq-dövlət birliyi, mənəvi vəhdətə istinad edən multikultural Azərbaycan modeli uğurlu nümunə kimi bütün dünya, o cümlədən Qafqaz üçün təqdirəlayiqdir.

Möhtərəm cənab Prezident, biz, Qafqaz Xalqları Ali Dini Şurasında təmsil olunan müxtəlif dini konfessiyaların rəhbərləri bütün bölgə dindarlarının iradəsini ifadə edərək, Zati-alinizə doğum gününüz münasibətilə təbriklərimizi və dərin ehtiramımızı bildirir, Azərbaycan xalqının və dövlətçiliyinin tərəqqisi, bölgəmizin mənafeyi naminə gördüyünüz dəyərli işlərə Uca Yaradanımızdan rəvac diləyir, xeyir-dualarımızı bildiririk. Qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə ən xoş diləklərimizi qəbul edin. Uca Yaradan hər zaman yardımçınız olsun!

Qoy o bir olan Yaradan öz lütf və mərhəmətini hər zaman Azərbaycan xalqı və dövləti, bütün Qafqaz üzərində bərqərar etsin!

*Dərin ehtiramla,*

**Şeyxülislam Allahşükür Paşazadə,**
**Qafqaz Müsəlmanları İdarəsinin sədri,**
**Qafqaz Xalqları Ali Dini Şurasının sədri**
**Şuranın üzvləri:**
**İsmayıl Berdiyev,**
**Şimali Qafqaz Müsəlmanları**
**Əlaqələndirmə Şurasının sədri,**
**Rusiya Federasiyasının Qaraçay-Çərkəz**
**Respublikasının müftisi**
**Salex Mejiyev,**
**Rusiya Federasiyası Çeçenistan**
**Respublikasının müftisi**
**Əhməd Abdullayev,**
**Rusiya Federasiyası Dağıstan**
**Respublikasının müftisi**
**Həzrətəli Dzasejev,**
**Rusiya Federasiyası Kabardin-Balkar**
**Respublikasının müftisi**
**Hacımurad Qatsalov,**
**Rusiya Federasiyası Şimali Osetiya**
**(Alaniya) Respublikasının müftisi**
**Soltanəhməd Karolayev,**
**Rusiya Federasiyası Kalmıkiya**
**Respublikasının müftisi**
**Askarbiy Kardanov,**
**Rusiya Federasiyası Adıgey və**
**Krasnodar Respublikasının müftisi**
**Aleksandr,**
**Bakı və Azərbaycan arxiyepiskopu**
**Melih Yevdayev,**
**Azərbaycandakı Dağ yəhudiləri**
**icmasının rəhbəri**
**Vladimir Fekete,**
**Azərbaycandakı Roma Katolik**
**Kilsəsinin yepiskopu**
**Robert Mobili,**
**Azərbaycandakı Alban-udi xristian**
**icmasının sədri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Hər bir insanın həyatında bu əlamətdar gün illər boyu qazanılmış müdrikliyin, peşəkarlığın, qiymətli biliklərin və əzmkarlığın, iş qabiliyyətinin və öz gücünə inamın təcəssümüdür.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, bütün niyyətlərinizi həyata keçirmək üçün tükənməz fiziki və mənəvi qüvvə arzu edirəm. Qoy bütün işləriniz uğurlu olsun, nikbinlik və xoş əhval-ruhiyyə Sizi heç vaxt tərk etməsin, hər yeni gün Sizə əmin-amanlıq, harmoniya və xoşbəxtlik bəxş etsin!

*Hörmətlə,*

**Roman Saviçev**
**Rusiyanın Stavropol diyarının dördüncü çağırış Dumasının deputatı,**
**"SRV" hüquq agentliyi" ASC-nin baş direktoru**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident.

Doğum gününüz münasibətilə Sizi Rusiya Notariuslar Assosiasiyası adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Başa çatmaqda olan il Azərbaycan xalqının çoxsaylı nailiyyətləri ilə əlamətdar olub. Prezident seçkilərində Sizin inamlı qələbəniz ölkənin iqtisadi və mədəni inkişafına, onun beynəlxalq nüfuzunun möhkəmlənməsinə yönəlmiş siyasi kursunuzun xalq tərəfindən yüksək səviyyədə dəstəklənməsini bir daha nümayiş etdirdi.

Qoy Sizin bütün işləriniz və təşəbbüsləriniz, əvvəlki kimi, həmvətənləriniz, tarixi vətənimizin hüdudlarından çox-çox uzaqlarda dostlarınız və məsləkdaşlarınız tərəfindən dəstəklənsin!

Hörmətli İlham Heydər oğlu, Sizə və yaxınlarınıza səmimi qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, gözəl Yeni il əhval-ruhiyyəsi arzu edirəm.

Qoy qarşıdan gələn Yeni il Sizin üçün və doğma Azərbaycan üçün uğurlu, parlaq hadisələrlə, yeni xeyirxah əməllər və nailiyyətlərlə dolu olsun!

*Dərin hörmətlə,*

**Natiq Ağamirov**
**Rusiya Notariuslar Assosiasiyasının sədri, professor**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Ad gününüz münasibətilə Sizi təbrik edirəm. Sizə, ailənizə, dostlarınıza möhkəm cansağlığı, xoşbəxtlik diləyirəm.

Ötən illər ərzində etdiyimiz uğurlu əməkdaşlıqdan, Sizi və ailənizi tanımaq fürsətini əldə etməkdən böyük məmnuniyyət və şərəf duyuruq.

Xahiş edirəm qarşıdan gələn Yeni il münasibətilə təbriklərimizi qəbul edin.

Bu fürsətdən istifadə edərək, "S.A.T. Security and Transport" şirkətinin adından və şəxsən öz adımdan Sizə dövlət başçısı kimi ölkənizin gələcək mənafeyi və tərəqqisi naminə məsul vəzifənizin icrasında yeni-yeni uğurlar arzu edirəm.

*Dərin hörmətlə,*

**Konrad Szorq**
**Almaniyadan "S.A.T. Security and Transport" şirkətinin rəhbəri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident.

Doğum gününüz münasibətilə Sizi şəxsən öz adımdan və Moskva Polad və Xəlitələr İnstitutu Milli Texnoloji Tədqiqatlar Universitetinin kollektivi adından təbrik edirəm.

Sizin öz işinizə yaradıcı münasibətiniz, parlaq lider keyfiyyətləriniz və mürəkkəb məsələlərin həllinə peşəkarlıqla yanaşmağınız yüksək məqsədlərə nail olmağınıza imkan verir. Öz vəzifənizə sadiqliyiniz, hərtərəfli biliyiniz, daim peşəkarlıq səviyyənizi artırmağa çalışmağınız haqlı olaraq Sizə həmkarlarınızın və dostlarınızın hörmətini qazandırıb.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, firavanlıq və tükənməz enerji diləklərimi qəbul edin.

*Hörmətlə,*

**Alevtina Çernikova**
**Moskva Polad və Xəlitələr İnstitutu Milli Texnoloji Tədqiqatlar Universitetinin rektoru**

## Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib.**

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin V hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 7.1-ci maddəsinə əsasən, vətəndaş M.Sarıyevin məhkəmə aktlarından verdiyi şikayətə baxılaraq, icraata qəbul olunması haqqında qərardad çıxarılıb.

Şikayətə mahiyyəti üzrə, Konstitusiya Məhkəməsi Plenumunun yanvarın 8-nə təyin edilmiş iclasında baxılacaq.

**AZƏRTAC**

# Azərbaycan tələbələrinin II qurultayının iştirakçılarına

Hörmətli qurultay iştirakçıları!

Əziz tələbələr!

Sizi - Azərbaycan tələbələrinin II qurultayının iştirakçılarını səmimi qəlbdən salamlayır, sizin simanızda ölkəmizin bütün tələbə gənclərinə ən xoş arzularımı yetirir və qurultayın işinə uğurlar arzulayıram.

Bugünkü ali məclisinizin "Azərbaycan Xalq Cümhuriyyəti İli"nə təsadüf etməsi əlamətdar haldır. Ölkəmizdə ana dilində tədrisə başlanılması, ilk universitetin yaradılması və azərbaycanlı gənclərin xaricdə ali təhsil almağa göndərilməsinin təməli Xalq Cümhuriyyəti dövründə qoyulmuş, bu ənənə xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən davam etdirilmişdir. Məhz Ulu Öndərin təşəbbüsü ilə azərbaycanlı gənclər keçmiş Sovetlər Birliyinin məşhur ali məktəblərində təhsil alaraq vətənimizin yüksəlişi naminə cəmiyyət həyatının ən müxtəlif sahələrində əzmkarlıqla çalışmışlar.

Müstəqil Azərbaycanda milli təhsil quruculuğu sahəsində əhəmiyyətli addımlar atılmış, gəncliyin inkişafı və təhsili ilə bağlı bir sıra dövlət proqramları qəbul edilmişdir. Ümidvaram ki, həmin proqramlar müvəffəqiyyətlə həyata keçiriləcək, gənclərimiz ən yeni bilik və texnologiyaları mənimsəyərək yüksək hazırlıqlı kadrlar kimi ictimai-siyasi, iqtisadi və mədəni həyatda təqdirəlayiq fəaliyyətləri ilə ölkəmizin tərəqqisi naminə öz töhfələrini verəcəklər.

Əziz gənclər!

Siz çiçəklənən gözəl bir ölkədə yaşayırsınız. Hamılıqla uğurlarınıza ürəkdən sevinirik. Zəngin bilikli və dərin mənəviyyatlı vətənpərvər gənclik olaraq formalaşmağınız gələcəyə inamımızı artırır, qəlbimizi qürur hissi ilə doldurur. Sizinlə fəxr edirik.

Azərbaycanın gələcəyi məhz sizlərin bilik səviyyənizdən və müasir innovativ texnologiyalara yiyələnmək bacarığınızdan asılı olacaqdır. Sizin dövlətimizin və xalqımızın etimadını layiqincə doğruldacağınıza inanıram.

Dərin hörmət və ehtiramla,

**Mehriban ƏLİYEVA,**
**Azərbaycan Respublikasının**
**Birinci vitse-prezidenti.**

**Bakı şəhəri, 20 dekabr 2018-ci il.**

# Ədliyyə naziri Kürdəmirdə vətəndaşları qəbul edib

**Azərbaycan Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqlarına uyğun olaraq, Ədliyyə Nazirliyi vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirir.**

Dekabrın 21-də ədliyyə naziri Fikrət Məmmədov Kürdəmir rayonundakı Heydər Əliyev Mərkəzində Kürdəmir, Ucar və Ağsu rayonlarından olan vətəndaşların qəbulunu keçirib.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbuldan əvvəl nazir Fikrət Məmmədov və Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərov ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyub, əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Qəbulda hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə həllini tapıb. Digər müraciətlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Səfər zamanı ədliyyə naziri, həmçinin yerli ədliyyə və məhkəmə orqanlarının fəaliyyəti və iş şəraiti ilə tanış olub, ədliyyə işçiləri və hakimlərlə müşavirə keçirib.

Nazir yüz illiyini qeyd etdiyimiz Azərbaycan ədliyyəsinin davamlı inkişafı üzrə görülən tədbirlərdən danışaraq rayona səfərdən öncə dövlətimizin başçısı İlham Əliyevin Bakı şəhəri Binəqədi Rayon Məhkəməsi üçün müasir inzibati binanın açılışını etdiyini vurğulayıb. Bildirilib ki, yeni məhkəmə binasının istifadəyə verilməsi məhkəmənin fəaliyyətinin yüksək səviyyədə təmin olunmasına, vətəndaşların müraciət imkanlarının asanlaşdırılmasına və insan hüquqlarının etibarlı təminatına xidmət edəcək.

Müşavirədə Prezident İlham Əliyevin Sərəncamı ilə yenicə təsdiq olunmuş "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər Dövlət Proqramı"nın müstəsna əhəmiyyəti qeyd olunub, bu mühüm sənədin ədliyyə və məhkəmə fəaliyyətinin müasirləşdirilməsi, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, müasir innovativ texnologiyaların və elektron sistemlərin tətbiqi, şəffaflığın artırılması və digər prioritetləri müəyyən etdiyi vurğulanıb, bununla bağlı qarşıda duran vəzifələr diqqətə çatdırılıb.

Eyni zamanda, məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, etik davranış qaydalarına dönmədən əməl olunması, korrupsiyaya şərait yaradan halların yolverilməzliyi qeyd edilərək tövsiyə və tapşırıqlar verilib.

**AZƏRTAC**

# Milli Kitabxanada Mir Cəlal Paşayevin "Ədəbi tənqid" və "Publisistika" kitablarının təqdimatı olub



**Dekabrın 21-də Mirzə Fətəli Axundzadə adına Milli Kitabxanasında görkəmli yazıçı və böyük ədəbiyyatşünas alim Mir Cəlal Paşayevin "Ədəbi tənqid (1931-1974)" və "Publisistika (1926-1977)" kitablarının təqdimatı keçirilib.**

AZƏRTAC xəbər verir ki, hər iki kitab Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Kitabxanası tərəfindən nəşr olunub.

Tədbiri mədəniyyət naziri Əbülfəs Qarayev açaraq bu il ərzində ölkəmizdə, bölgələrdə Mir Cəlal Paşayevin anadan olmasının 110 illiyi münasibətilə silsilə

tədbirlərin keçirildiyini bildirib: "Görkəmli ədib və alimlərimizin yubileylərini qeyd etməklə bir daha şahidi oluruq ki, Azərbaycan ədəbiyyatı, mədəniyyəti nə qədər zəngin və qüdrətlidir. Bu xəzinənin gələcək nəsillərə ötürülməsinin böyük əhəmiyyəti var. Biz həmişə öz ənənələrimizə sadiq qalaraq görkəmli şəxsiyyətlərimizin fəaliyyətini dönə-dönə ictimaiyyətə təqdim etməliyik".

Yazıçının 100 illiyi ilə bağlı UNESCO-nun baş qərargahında keçirilən möhtəşəm tədbiri xatırladan nazir deyib ki, həmin tədbir nəinki Mir Cəlal Paşayevin yaradıcılığının, eyni zamanda, Azərbaycan ədəbiyyatının beynəlxalq aləmdə təbliğinə töhfə olub: "Onun əsərlərini oxuyarkən gəldiyim qənaət budur ki, yazıçı mürəkkəb siyasi-ideoloji bir dövrdə yaşasa da, heç vaxt azərbaycançılıqdan, xalqımızın mənəvi aləmindən uzaq düşməyib. Yazıçının əsərlərində düzgünlük, sadəlik, xalqı sevmək, etibar, inam və digər yüksək insani keyfiyyətlər ön plandadır. Buna görə də müəllifin zəngin bədii yaradıcılığı və elmi tədqiqatları hər zaman aktuallığını qoruyub saxlayacaq, yeni nəsillərin mənəvi zənginliyində mühüm rol oynayacaq".

Nazir qeyd edib ki, təqdimatı keçirilən kitablar çox zəngin məlumatları özündə əks etdirir: "Publisistika" məqalələr toplusunda ədibin 1926-1977-ci illərdə qələmə aldığı məqalələri, "Ədəbi tənqid" kitabında isə alimin 1931-1974-cü illəri əhatə edən araşdırmaları yer alıb. Yazıçının anadan olmasının 110 illiyi münasibətilə "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından daha mükəmməl və fundamental biblioqrafiya hazırlanıb. Həmçinin nazirlik tərəfindən başlanılan "Azərbaycan Kitabının Dünyada Tanıdılması" layihəsi çərçivəsində Mir Cəlal Paşayevin "Bir gəncin manifesti" romanı və "Füzuli sənətkarlığı" əsəri Türkiyədə çap olunub. Eyni zamanda, yeni bərpa olunmuş "Bir ailə" filmi nümayiş edilib. Bu tədbirlər xalqımızın Mir Cəlal Paşayevə dərin hörmətinin ifadəsidir. Böyük ədibin çoxtərəfli fəaliyyəti nəinki Azərbaycan xalqı tərəfindən hörmətlə qəbul edilir, onun dərin məzmunlu yaradıcılığı bir sıra xarici ölkələrdə də rəğbətlə qarşılanır".

Təqdimat mərasimində Xalq yazıçısı Elçin Əfəndiyev çıxış edərək Mir Cəlal Paşayevin zəngin yaradıcılığından, elmi və pedaqoji fəaliyyətindən və nəcib insani keyfiyyətlərindən söhbət açıb. Bildirib ki, böyük ədib və alim, görkəmli pedaqoq Mir Cəlal Paşayev müdrik insan, nəcib şəxsiyyət idi. Yazıçının müxtəlif janrlarda qələmə aldığı əsərləri həm mövzu zənginliyi, həm də dil və üslub xüsusiyyətləri ilə diqqəti cəlb edir, böyük maraq doğurur. "Mir Cəlal müəllim xoşbəxt yazıçı idi, ona görə ki, sovet sisteminə deyil, ədəbiyyata xidmət edirdi. Bugünkü oxucuların - müstəqil Azərbaycan vətəndaşlarının psixologiyası və tələbləri fərqli olsa da, Mir Cəlalın əsərləri indi də sevilə-sevilə oxunur. O, həm də xoşbəxt ədəbiyyatşünas alim idi. Ədəbiyyatşünaslığın sovet ideologiyasının tərkib hissəsi olmasına baxmayaraq, Mir Cəlal yenə də quruluşa deyil, Azərbaycan ədəbiyyatı tarixinə xidmət edirdi. O, həm də xoşbəxt pedaqoq idi. Çünki pedaqoji fəaliyyətini komsomol və partiya ideologiyasına deyil, Azərbaycan xalqı üçün gərəkli oğullar yetişdirməyə həsr etmişdi. Bu gün də tələbələrinin yaddaşında yaşayır və bu tələbələr ondan öyrəndiklərini yeni nəsillərə ötürərək müəllimlərinin əziz xatirəsini yaşadırlar", - deyə Xalq yazıçısı qeyd edib.

Çap olunan kitabların elmi məsləhətçisi, akademik Nizami Cəfərov bildirib ki, Mir Cəlal müəllim sovet rejimi dövründə yaşayıb yaratmış elə müdrik müəlliflər sırasına daxildir ki, bu gün onun ədəbi-tənqidi, publisistik yazılarının altından yazıldığı tarixi götürsək, həmin materialların elə bu gün yazıldığını zənn etmək olar. Bu səbəbdən də kitablarda ədibin bir sözünə də toxunulmayıb və bütün yazılar orijinalda olduğu kimi verilib.

Xalq şairi Nəriman Həsənzadə Mir Cəlal Paşayevlə bağlı xatirələrini bölüşüb. Bildirib ki, o, hər zaman oxucularının yanında idi. Bütöv şəxsiyyəti ilə Mir Cəlal müəllim özü bir əsər idi.

"Ədəbi tənqid" kitabının "Ön söz" müəllifi professor Asif Rüstəmli diqqətə çatdırıb ki, milli ədəbiyyatımızın saflığı, duruluğu Mir Cəlal müəllimi həmişə düşündürüb: "Onun bədii yaradıcılığa yeni gələn, gələcəyinə ümidlər bəslənilən gənclərin əsərlərinə tənqidi münasibəti də sabit və birmənalı olaraq xeyirxahlıq səciyyəsi daşıyırdı. Mir Cəlal müəllimin çoxşaxəli yaradıcılığında, həyat yolunda mənəvi bütövlük var. Bu mənəviyyat məcrasında görkəmli müəllim, alim, yazıçı taleyi görünməkdədir".

Mir Cəlalın "Publisistika" kitabının "Ön söz" müəllifi Elnur İmanbəyli çıxışında nəşrin gənc tədqiqatçılar üçün dəyəli mənbə olacağını vurğulayıb, məqalələrdəki fəlsəfi düşüncələrin əhəmiyyətini qeyd edib.

Milli Kitabxananın direktoru, professor Kərim Tahirov kitablarda nəşr olunan materialların Milli Kitabxananın arxiv fondundan, dövri mətbu nəşrlərdən, Salman Mümtaz adına Dövlət Mədəniyyət və İncəsənət Arxivinin fondlarından toplandığını qeyd edib.

Tədbirdə professorlar Şirindil Alışanlı, Buludxan Xəlilov və başqaları çıxış edərək kitabın elmi məziyyətlərindən, görkəmli yazıçının alim və müəllim kimi şəxsi keyfiyyətlərindən, yaradıcılığının özünəməxsusluğundan danışıblar.




Bildirilib ki, Mir Cəlalın ədəbi-tənqidi və publisistik məqalələrinin ayrıca kitab halında indiyədək nəşr olunmadığını nəzərə alsaq, bu nəşrlər görkəmli alimin bu mövzuda oxucular və mütəxəssislərlə ilk görüşü hesab oluna bilər.

Mir Cəlalın ailəsi adından çıxış edən oğlu, "ADA" Universitetinin rektoru, professor Hafiz Paşayev tədbirin təşkilində zəhməti olan hər kəsə təşəkkürünü bildirib. O, növbəti tədbirlərdən birinin məhz "Mir Cəlal və müasirləri" mövzusuna həsr olunmasını təklif edib. Diqqətə çatdırıb ki, ədəbiyyatımızda layiqli yeri olan insanlar çoxdur və onlar haqqında bu cür tədbirlər təşkil edilməlidir.

Atası ilə bağlı xatirələri bölüşən Hafiz Paşayev ixtisasca ədəbiyyatçı olmasa da, Mir Cəlalın bədii irsi sayəsində ədəbiyyata böyük maraq göstərdiyini deyib. Kitabların gənclərə tariximizin öyrənilməsində yardımçı olacağına ümid etdiyini diqqətə çatdırıb: "Mir Cəlalı çox zaman işıqlı adam adlandırırlar. Çox istərdim ki, onun yaradıcılığından, yaratdığı əsərlərdən gənc nəsil də bəhrələnsin və ölkəmizin işıqlı gələcəyinə öz töhfələrini versinlər".

Qeyd edək ki, yeni nəşrlərin layihə rəhbəri mədəniyyət naziri Əbülfəs Qarayev, elmi məsləhətçisi, akademik Nizami Cəfərov, tərtibçi və elmi redaktoru, professor Kərim Tahirov, redaktoru, Əməkdar mədəniyyət işçisi Ədibə İsmayılova və filologiya üzrə fəlsəfə doktoru Validə Həsənovadır.

**AZƏRTAC**

# Məhkəmə-Hüquq Şurasının iclası keçirilib

**Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib.**

**Şuradan AZƏRTAC-a bildiriblər ki, Fikrət Məmmədovun sədrliyi ilə keçirilən iclasda son illər ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə məqsədyönlü tədbirlərin görüldüyü vurğulanıb. Bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, hakimlərin şəffaf seçiminin keçirilməsi, insanların məhkəmələrə müraciət imkanlarının asanlaşması, "Elektron məhkəmə" informasiya sisteminin yaradılmasının nüfuzlu beynəlxalq təsisatlar tərəfindən təqdir olunduğu bildirilib.**

Məhkəmə infrastrukturunun müasirləşdirilməsində dövlətimizin başçısının yüksək dəstəyi qeyd olunub. Yeni inşa edilən və ən müasir texnologiyalarla təmin olunmuş müasir məhkəmə bina və komplekslərinin açılışında Azərbaycan Prezidentinin şəxsən iştirakının məhkəmə hakimiyyətinin möhkəmləndirilməsinə dövlət qayğısının bariz nümunəsi olduğu vurğulanıb.

İclasda Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə Prezident İlham Əliyevin sərəncamları ilə hakimlərin və Məhkəmə-Hüquq Şurası üzvlərinin bir qrupunun "Əməkdar hüquqşünas" fəxri adına layiq bilinməsi, habelə orden və "Tərəqqi" medalı ilə təltif edilməsi qeyd olunub.

Tədbirdə həmin təltiflər təntənəli surətdə təqdim edilib. Dövlət təltiflərinə layiq bilinmiş şəxslər çıxışlarında onların fəaliyyətinə verilən yüksək qiymətə görə dövlətimizin başçısı İlham Əliyevə sonsuz ehtiramlarını ifadə edib, bunun böyük məsuliyyət hissi yaratdığını, məhkəmə hakimiyyətinin inkişafı naminə daha fədakarlıqla çalışmağa ruhlandırdığını bildiriblər.

Eyni zamanda, Məhkəmə-Hüquq Şurasının iclasında səlahiyyət müddəti bitmiş 56 hakimin və 7 məhkəmə sədrinin fəaliyyətinin qiymətləndirilməsi nəticələri prinsipial müzakirə edilib. Dörd məhkəmə sədrinin işində nöqsan və çatışmazlıqlara görə aşağı işə keçirilməsi, vətəndaşlarda haqlı narazılıq doğuran pozuntulara yol verməsi nəzərə alınaraq 6 hakimin səlahiyyətlərinə xitam verilməsi barədə qərar qəbul olunub. Bundan başqa, 57 nəfərin peşəkarlıq səviyyəsinə uyğun müxtəlif hakim vəzifələrinə təyinatı məqsədəuyğun bilinib.

Qeyd olunub ki, ölkəmizdə hakimliyə namizədlərin Avropada nümunə kimi göstərilən obyektiv seçimi nəticəsində 800-dən çox namizəd sırasından 108 hüquqşünas çoxmərhələli imtahanları, o cümlədən bir il müddətində davam etmiş təlimləri və məhkəmələrdə, habelə Türkiyədə və Avropa Məhkəməsində stajkeçməni uğurla başa vurub.

İclasda hakim korpusunun həmin gənc nəsil hakimliyə namizədlər hesabına möhkəmləndirilməsinin əhəmiyyəti vurğulanıb. Həmçinin apellyasiya instansiyası məhkəmələrində sədr müavini və kollegiya sədri vəzifələrinin komplektləşdirilməsi, hakim kadrlarından daha səmərəli istifadə edilməsi məqsədilə rotasiya



ehtiyacı, hakimlərin iş yerinin dəyişdirilməsi barədə müraciətləri nəzərdən keçirilib, ətraflı müzakirələr aparılaraq dövlətimizin başçısına müvafiq təkliflər verilib.

Bildirilib ki, bu sahədə görülən tədbirlər nəticəsində məhkəmə sistemində mövcud olan bütün vakansiyaların tam əksəriyyəti komplektləşdiriləcək. Bu da hakimlərin iş yükünün xeyli azalmasına, işlərə daha keyfiyyətlə baxılmasına və süründürməçilik hallarının aradan qaldırılmasına xidmət edəcək.

**AZƏRTAC**

*Tural Gəncəliyev:*

# Dağlıq Qarabağın Azərbaycan icmasının legitim hüquqları bərpa olunmadan münaqişənin ədalətli həlli mümkün deyil

Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində mahiyyət etibarilə Serj Sarkisyan rejiminin davamı olan kriminal xunta yaradılıb. Orada yaşayan erməni əhalisi, yeni Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni icması qondarma xunta rejiminin işğalı altındadır, onlar total nəzarət altında saxlanılır və bütün hüquqlardan məhrum ediliblər.

AZƏRTAC xəbər verir ki, bu sözləri mətbuata açıqlamasında "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin sədri Tural Gəncəliyev bildirib.

O deyib: "Ermənistan əhalisi bu ilin aprelində meydana çıxan kütləvi etiraz aksiyaları vasitəsilə Sarkisyan rejimini hakimiyyətdən saldı. Dağlıq Qarabağda baş verən son hadisələr onu göstərir ki, əhali bu qondarma kriminal rejimin mövcudluğundan bezmişdir.

Dağlıq Qarabağın Azərbaycanlı icmasının mövcudluğunu belə inkar edən qondarma rejimin nümayəndəsi David Babayana xatırlatmaq istərdim ki, danışıqlar prosesində Ermənistan və Azərbaycan münaqişə tərəfləri, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni və azərbaycanlı icmaları isə maraqlı tərəflər kimi müəyyən olunublar. Dağlıq Qarabağın Azərbaycan icmasının legitim və ayrılmaz hüquqları bərpa olunmadan, o cümlədən onların öz doğma torpaqlarına qayıtması təmin olunmadan münaqişənin ədalətli və davamlı həlli mümkün deyildir.

Serj Sarkisyan rejimi hər bir vəchlə iki icma arasında dialoqun yaradılmasına maneə olurdu və imkan vermirdi. Hesab edirik ki, bərabərhüquqlu tərəflər olan bu icmalar arasında Azərbaycanın sərhədləri daxilində sülh şəraitində gələcək birgə yaşayış təşviq olunmalıdır".

**AZƏRTAC**

*Bəyanat:*

# Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması konstruktiv dialoqa hazırdır

**Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli prosesi çərçivəsində Ermənistan qoşunları Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalı, məcburi köçkünlərin, o cümlədən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı əhalisinin öz doğma torpaqlarına - Dağlıq Qarabağa təhlükəsiz və ləyaqətli şəkildə qayıtması, mülkiyyət hüquqlarından istifadə olunması təmin edilməlidir.**

AZƏRTAC xəbər verir ki, bu fikirlər "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin növbəti qurultayının yekununda qəbul olunmuş bəyanatda yer alıb.

Bəyanatda deyilir: Ötən əsrin 80-ci illərinin sonlarında Azərbaycanın Dağlıq Qarabağ bölgəsində başlayan erməni separatizmi dalğası milli zəmində münaqişəyə, əzəli Azərbaycan torpaqları olan Ermənistandan, eləcə də Dağlıq Qarabağ bölgəsindən soydaşlarımızın qovulmasına, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizinin - Dağlıq Qarabağ və ətrafındakı yeddi rayonun işğalına, bu ərazilərdə etnik təmizləmə siyasətinin həyata keçirilməsinə, bir milyondan çox həmvətənimizin qaçqın və məcburi köçkün vəziyyətinə düşməsinə səbəb olub.

30 ildir ki, davam edən münaqişənin ilk günlərindən hələ keçmiş Sovetlər İttifaqının tərkibində ikən Ermənistan Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinə açıq ərazi iddiaları irəli sürməyə və yerli azərbaycanlı əhaliyə qarşı zorakılıqla və terrorla müşayiət olunan təcavüzkar separatizmi fəal şəkildə dəstəkləməyə başladı. Eyni zamanda, Ermənistan tərəfindən Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycandan birtərəfli qaydada ayrılması və Ermənistana birləşdirilməsi məqsədilə bir sıra qeyri-qanuni qərarlar qəbul edildi. Lakin hələ Sovetlər İttifaqının mövcudluğu dövründə - 1990-cı il yanvarın 10-da SSRİ Ali Sovetinin rəyasət heyəti "Ermənistan SSR Ali Sovetinin Dağlıq Qarabağla bağlı qəbul etdiyi 1989-cu il 1 dekabr və 1990-cı il 9 yanvar tarixli aktlarının SSRİ Konstitusiyasına uyğunsuzluğu" haqqında qərar qəbul edərək Azərbaycanın razılığı olmadan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinin qeyri-qanuni olduğunu elan etmişdi.

Bütün bu faktlar göstərir ki, hələ o zaman Azərbaycanın icazəsi olmadan Dağlıq Qarabağın birtərəfli qaydada ayrılmasının SSRİ qanunlarına zidd olması ali Konstitusiya səviyyəsində təsdiqlənmişdi. Odur ki, Azərbaycan müstəqilliyini bərpa etdikdə də həmin dövrün mövcud qanunlarına əsasən Dağlıq Qarabağ birmənalı olaraq Azərbaycanın tərkib hissəsi kimi qəbul olunmuşdu".

Bəyanatda qeyd olunur ki, bütün bunlara baxmayaraq, Ermənistan BMT Nizamnaməsini, beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq hərbi gücdən istifadə etməklə Azərbaycana qarşı açıq müharibəyə başladı, Azərbaycanın Dağlıq Qarabağ bölgəsi daxil olmaqla, ətraf yeddi rayonu işğal etdi. İşğal olunmuş ərazilərdə, o cümlədən Dağlıq Qarabağda köklü Azərbaycan əhalisinə qarşı etnik təmizləmə törədildi. Hazırda sayı 80 min nəfərdən artıq olan Dağlıq Qarabağın azərbaycanlı icmasının üzvləri 30 ilə yaxındır ki, Azərbaycanın müxtəlif bölgələrində məcburi köçkün vəziyyətində yaşamaq məcburiyyətindədirlər.

"Dünya birliyi və beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və münaqişənin beynəlxalq normalara uyğun, ədalətli həllinin tərəfdarıdır. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələri Dağlıq Qarabağın Azərbaycan Respublikasının ayrılmaz hissəsi olduğunu təsbit etməklə, erməni silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Bu tələb Qoşulmama Hərəkatı, ATƏT, NATO, Avropa Parlamenti, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələrində də öz əksini tapır.

Lakin Ermənistan bütün bunlara məhəl qoymayaraq işğala əsaslanan status-kvonu saxlamaqla Azərbaycanın işğal edilmiş ərazilərini, o cümlədən Dağlıq Qarabağı ilhaq siyasəti yürüdür və qəsdən bu əməllərinə xalqların öz müqəddəratını təyinetmə donu geyindirməyə çalışır. Bu məqsədlə Ermənistan Dağlıq Qarabağın azərbaycanlı icmasının hətta mövcudluğunu da inkar etməyə cəhd göstərir, işğal olunmuş Dağlıq Qarabağda və ətraf rayonlarda Azərbaycan xalqına məxsus maddi-mədəni irsi məhv edir və qeyri-qanuni məskunlaşdırmanı davam etdirir",- deyə bəyanatda bildirilir.

Vurğulanır ki, beynəlxalq hüququn ali prinsiplərindən olan xalqların öz müqəddəratını təyinetmə hüququ digərlərinin hüquqlarının pozulmasını, zorakılıq əməllərinin törədilməsini heç bir halda qəbul etmir. Fundamental insan hüquq və azadlıqları universal xarakter daşıyır, ayrılmazdır və bütün insanlığa şamil olunaraq bərabər əsasda və ayrı-seçkilik olmadan tətbiq olunmalıdır. ATƏT-in sənədlərinə uyğun olaraq, Ermənistan-Azərbaycan münaqişəsinin həllində Ermənistan və Azərbaycan münaqişə tərəfləri olduqları halda, Dağlıq Qarabağın azərbaycanlı və erməni icmaları maraqlı tərəflər kimi müəyyən olunub. Münaqişənin ədalətli həlli prosesi çərçivəsində Ermənistan qoşunları Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalı, məcburi köçkünlərin, o cümlədən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı əhalisinin öz doğma torpaqlarına - Dağlıq Qarabağa təhlükəsiz və ləyaqətli şəkildə qayıtması, mülkiyyət hüquqlarından istifadə olunması təmin olunmalıdır. Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının üzvləri Dağlıq Qarabağın azərbaycanlı və erməni icmalarının ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri, suverenliyi və ərazi bütövlüyü çərçivəsində yenidən sülh şəraitində birgə yaşamağa qadir olduqlarına inanır.

Bəyanatda deyilir: "Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmalarının birgə yaşayışı şəraitində ədalətli sülh, dayanıqlı regional sabitlik və təhlükəsizlik təmin oluna bilər. Bu istiqamətdə mühüm addımlardan biri kimi Dağlıq Qarabağın azərbaycanlı və erməni icmaları arasında dialoq təşviq edilməlidir. Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması konstruktiv dialoqa hazırdır.

Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması beynəlxalq ictimaiyyətə, xüsusilə ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinə müraciət edərək, Ermənistan-Azərbaycan münaqişəsinin həllinə töhfə vermək məqsədilə səyləri artırmağa və Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmaları arasında təmasları dəstəkləməyə çağırır".

**AZƏRTAC**

# Azərbaycan tələbələrinin II qurultayı keçirilib






**Dekabrın 21-də Təhsil, Gənclər və İdman nazirliklərinin birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində Azərbaycan tələbələrinin II qurultayı keçirilib.**

Qurultayın keçirilməsi Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramı”nda əksini tapıb.

AZƏRTAC xəbər verir ki, əvvəlcə qurultay iştirakçıları Fəxri xiyabana gedərək ümummilli lider Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsi anılıb, məzarları üzərinə güllər qoyulub.

Qurultay Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın qurultay iştirakçılarına təbrik məktubunu Prezident Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva oxuyub *(Məktubun mətni qəzetin bugünkü nömrəsində dərc olunub).*

Baş nazirin müavini Əli Əhmədov qurultayda çıxış edərək əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş gənclər siyasətini hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurla davam etdirdiyini deyib. Əli Əhmədov gənclərin və tələbələrin Azərbaycan əhalisinin əhəmiyyətli hissəsini təşkil etdiyini, onların ölkənin siyasi, iqtisadi, sosial həyatında mühüm rol oynadıqlarını qeyd edib və qurultayın işinə uğurlar arzulayıb.

Təhsil naziri Ceyhun Bayramov ölkəmizdə həyata keçirilən təhsil və gənclər siyasəti barədə ətraflı məlumat verərək tələbə-gənclərin dövlətin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunduğunu bildirib. Nazir “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın qəbul edilməsindən ötən 5 il ərzində ali təhsil sisteminin təkmilləşdirildiyini, universitetlərin kadr potensialı və maddi-texniki bazasının gücləndirildiyini, ali təhsilin əlçatanlığı istiqamətində mühüm addımların atıldığını qeyd edib. Vurğulayıb ki, ötən dövr ərzində Azərbaycan Avropa Ali Təhsil Məkanının bərabərhüquqlu üzvünə çevrilib, ali təhsil müəssisələrinin fəaliyyəti Bolonya prosesinin tələblərinə uyğunlaşdırılıb.

Nazir bildirib ki, bu il qəbul imtahanlarında rekord sayda - 41 minə yaxın gənc tələbə adını qazanıb, 3127 nəfər 600 baldan yüksək nəticə göstərib, 29 abituriyent 700 bal toplayıb. Beş yüzdən yuxarı bal toplayan 2090 gənc müəllimlik ixtisasını seçib ki, bu da gənclər arasında müəllim peşəsinə marağın artmasını sübut edir. Təhsilin əlçatanlığının təmin edilməsi məqsədilə 2019-2020-ci tədris ilində ali təhsil müəssisələrində dövlət sifarişli yerlərin əhəmiyyətli şəkildə artırılması nəzərdə tutulub.

Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə Bakı şəhərində 800 yerlik ən müasir infrastruktura malik tələbə yataqxana kompleksinin inşasının başa çatdırıldığını deyən Ceyhun Bayramov bildirib ki, paytaxtda və regionlarda yeni yataqxana komplekslərinin inşası, Sumqayıt və Gəncə şəhərlərində mövcud yataqxana binalarının əsaslı təmiri və yenidən qurulması tələbələrin təhsil imkanlarının əhəmiyyətli şəkildə genişləndirilməsinə imkan verəcək.

Təhsil naziri “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində 3558 gəncin dünyanın ən nüfuzlu universitetlərində təhsil aldığını deyib və bildirib ki, hazırda Azərbaycanın ali məktəblərində 76 ölkədən 6 mindən çox əcnəbi tələbə təhsil alır. Ceyhun Bayramov ölkə Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş “2019-2023-cü illər üçün ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”nın ali təhsilin keyfiyyətinin yüksəldilməsində, ikili diplom proqramlarının genişləndirilməsində və xaricdə doktorant hazırlığında mühüm rol oynayacağına əminliyini ifadə edib.

Qurultayda çıxış edən Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri, Milli Məclisin deputatı Şahin İsmayılov tələbə-gənclərlə bağlı həyata keçirilən layihələr, görülən işlər barədə məlumat verib. O bildirib ki, ulu öndər Heydər Əliyev hər zaman gənclərə xüsusi diqqət və qayğı ilə yanaşırdı. Dahi rəhbər çıxışlarında gəncliyin ölkə və xalq üçün hər şeydən qiymətli olduğunu qeyd edirdi. Bu gün dövlətimizin başçısı İlham Əliyev gənclər siyasətini uğurla davam etdirir.

Daha sonra Azərbaycan tələbələri haqqında hazırlanmış film nümayiş olunub.

Qurultay tələbələrin çıxışları ilə davam edib. Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin doktorantı Elnur Məmmədli, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbəsi Lalə Novruzova, “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində Böyük Britaniyanın Liverpul Universitetində təhsil almış Ümid Mehdiyev, Bakı Dövlət Universitetinin tələbəsi, sərbəst güləş üzrə üçqat dünya çempionu Hacı Əliyev, Azərbaycan Dövlət Pedaqoji Kollecinin tələbəsi Əfsanə Abdullayeva, Naxçıvan Dövlət Universitetinin tələbəsi Kərim Nəcəfov, Azərbaycan Dillər Universitetinin tələbəsi Ayşən Məmmədova, Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi Amin Fərəczadə, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti Akademiyasının tələbəsi Seyidəli Abbasov öz uğur hekayələrini bölüşüblər.

Tədbirin sonunda Azərbaycan tələbələrinin II qurultayının qətnaməsi qəbul olunub.

Qurultay tələbələr tərəfindən hazırlanmış konsert proqramı ilə başa çatıb.

Qeyd edək ki, hazırda Azərbaycanın ali məktəblərində bakalavr səviyyəsində 157 min 662, magistratura səviyyəsində 13 min 442, orta ixtisas təhsili müəssisələrində 51 min 819 tələbə təhsil alır.

**AZƏRTAC**

## Tbilisidə “Son iclas” bədii-sənədli filminin təqdimatı olub

**Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyevanın baş prodüseri olduğu “Son iclas” bədii-sənədli filminin Tbilisi şəhərində təqdimatı olub.**



AZƏRTAC xəbər verir ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilmiş film Heydər Əliyev Fondunun dəstəyi və “BP Azerbaijan” şirkətinin sponsorluğu ilə hazırlanıb.

Filmdə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin ən fəal rəhbərlərinin yaxından iştirakı ilə əzab-əziyyət, mübarizələr sayəsində əldə olunan müstəqilliklə bağlı respublikanın son dövrlərində verilən çətin qərarlardan bəhs edilir.

Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov çıxış edərək Azərbaycan Xalq Cümhuriyyətinin yaranma zərurətindən, xalqımızın dövlətçilik tarixindəki rolundan danışıb. Bildirib ki, cəmi 23 ay yaşamasına baxmayaraq, Cümhuriyyət Şərqin ilk və ən demokratik respublikasına çevrilə bilib və bu respublika Azərbaycan xalqının milli qürur mənbələrindən biridir.

D.Həsənov Xalq Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar Gürcüstanda keçirilmiş sərgi, rəsmi qəbul, konfrans və digər silsilə tədbirlər barədə də məlumat verib. Bildirib ki, bu gün “Son iclas” filminin nümayişi Cümhuriyyətin 100 illik yubileyinə həsr olunmuş silsilə tədbirlərdəndir. Filmdə Xalq Cümhuriyyətinin son günlərində baş verən hadisələrdən bəhs olunur və hökumətin son qərarını hansı çətin şəraitdə verdiyi əks etdirilir. Qeyd edilib ki, film bu günə qədər araşdırılmamış və ya gizli saxlanılmış arxiv sənədləri əsasında qələmə alınıb. Filmdə, həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin bu şərəfli tarixinin və faciəli taleyinin Azərbaycanın yenidən müstəqilliyə qovuşmasına böyük örnək olduğu ön plana çəkilir.

Daha sonra “Son iclas” filmi ingilis dilində gürcücə subtitrlərlə nümayiş etdirilib. Tamaşaçılar sırasında Azərbaycanın Gürcüstandakı səfirliyinin əməkdaşları, SOCAR-ın Gürcüstan nümayəndəliyinin rəhbəri Mahir Məmmədov, azərbaycanlı və gürcü ziyalılar, gənclər və tələbələr olublar. Film izləyicilər tərəfindən böyük maraq və alqışlarla qarşılanıb.

Ekran əsərinə tamaşa edən gürcü politoloq Tengiz Txilava jurnalistlərə müsahibəsində filmin yüksək peşəkarlıqla hazırlandığını deyib. Bildirib ki, film onda çox güclü təəssürat yaradıb.

Politoloq deyib: “Ekran əsərinə sona qədər demək olar ki, bir nəfəsə tamaşa etdim. Çox emosionallıqla hazırlanan bu ekran əsəri maraqlı faktlarla zəngindir. Təəssüf ki, Gürcüstanda ilk respublikanın yaradılmasının 100 iliyinə həsr olunmuş belə film hazırlanmayıb”.

**AZƏRTAC**


### “Azəralüminium” MMC
## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender bir (lot) lot üzrə keçirilir:**

**LOT-1.** 210 TON TÖKMƏ ÇUQUNUN SATINALINMASI

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə, ikiqat zərflərdə yazılı sürətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını aşağıdakı hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Gəncə şəhəri, Yevlax şosesi 53 ünvanından ala bilərlər.

**Əlaqə telefonu: (050) 250 14 29**
**Əlaqələndirici şəxs: Baxşəliyev Xəzri**
**Lot üzrə 200 (iki yüz) manat**

*Rekvizitlər:*
*VÖEN: 1305481501*
*Bank: “Azərbaycan Beynəlxalq Bankı” “Gəncə” filialı*
*Kod: 509352*
*VÖEN: 9900001881*
*M/h: AZ03NABZ01350100000000002944*
*S.W.İ.F.T. BİK:İBAZAZ2X*
*İBAN AZ36İBAZ40040019446110810255 AZN*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra 30 bank günü müddətində qüvvədə olmalıdır);*
*- malların təhvil verilmə qrafiki;*
*- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü qüvvədə olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*- İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanların tərəfindən təsdiq olunmuş maliyyə hesabatının sürəti;*
*- İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- İddiaçının son bir ildə analoji işlər üzrə təcrübəsi və potensial imkanı haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və sürəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, bank zəmanəti və malların təchiz olunma qrafiki istisna olmaqla) 30 yanvar 2019-cu il saat 17:00-a qədər, malların təchiz olunma qrafiki, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 7 fevral 2019-cu il saat 17:00-a qədər təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 8 fevral 2019-cu il saat 12:00-da açılacaqdır.

İddiaçıların səlahətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**



### “Azeraluminium” LLC
## CALL FOR TENDER

**The tender is held on a lot of lots:**

**LOT-1.** PURCHASE OF PIG IRON - 210 TON

Bidders are encouraged to submit their tender proposals in sealed, signed, double envelopes in a written form. Tender participants must have the necessary financial and technical capacities to fulfill the contract.

Wishing to attend in the tender can get an Instructions for Tenderers prepared in English language at Ganja, Yevlakh Highway 53 after transferring participation fee to the following bank details.

**Contact number: +994502501429**
**Contact person: Bakhshaliyev Khazri**
**Price per lot: 118 (one hundred eighteen) USD**

*Bank Details:*
*Tax ID: 1305481501*
*Bank: Azerbaijan International Bank Ganja Branch*
*Account of the Beneficiary:*
*AZ26IBAZ40140018406110810255*
*Code: 509352*
*Correspondent acoount: Citibank N.A. New York*
*SWIFT BIC: CITIUS33*
*Account Number: 36083186*

Participation fee is non-refundable.

Bidders must submit the following documents to participate in the tender:

*- Written application to participate in the tender;*
*- Bank document on payment of participation fee;*
*- Tender proposal (must be valid within 30 banking days from the date of opening of the envelopes);*
*- Goods delivery schedule;*
*- Bank guarantee in the amount of 1% of the value of the tender proposal (must be valid within 60 banking days after the date of opening of the envelope);*
*- financial report for the last year approved by the tax authorities on the activities of the applicant;*
*- Bank statement on the financial condition of the applicant for the past year;*
*- full name, legal status, Charter, country of registration and company and bank details;*
*- Information on the applicant's experience and capabilities over the past year. Documents should be prepared in 2 versions (original and copy).*

The tender procedure will be carried out in accordance with the Azerbaijan Republic State Procurement Law.

Bidders must submit the aforementioned documents (with the exeption of tender offer, bank guarantee and goods delivery schedule) before 5:00 pm January 30, 2019, and the goods delivery schedule, tender offer and bank guarantee in a sealed double envelope must be submitted before 5:00 pm February 7, 2019. Envelopes submitted after the deadline will be returned unopened. Bids will be opened on February 8, 2019 at 12:00.

Bidder representatives can participate in the tender opening ceremony.

**Tender Commission.**



### BİLDİRİŞ
## Kotirovka sorğusunun keçirilməsinə dair

“Azərbaycan Sənaye Korporasiyası” ASC-nin tabeliyində olan “ASK İzolit” MMC “Dövlət Satınalmalar haqqında” Azərbaycan Respublikasının qanununa və kotirovka sorğusunun təşkili və keçirilməsinə dair təlimata uyğun olaraq alınacaq xammalın və eyni zamanda istehsal olunan hazır məhsulun ölkə daxilində Mingəçevirə və Mingəçevirdən digər regionlara daşınmasını həyata keçirmək üçün daşıma xidmətinin satınalınmasına dair (Xidmətin təxmini məbləği 30.000 (otuz min) AZN) daşıyıcı şirkətin seçilməsi üzrə kotirovka sorğusu elan edir.

İddiaçılar satınalma prosedurunun predmetinə dair hazırlanmış əsas şərtlər toplusunun “ASK İzolit” MMC-dən əldə edə bilərlər.

Təkliflər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Təkliflər 2019-cu il 9 yanvar saat 15:00-dək qəbul olunur və əlaqələndirici şəxs Mənsimov İsmayıl Yusif oğluna müraciət etmək olar.

**Ünvan:** *Mingəçevir şəhəri, Heydər Əliyev prospekti 67*
**Telefon:** *050-224-05-06*
**E-mail:** *izolit.mingecevir@mail.ru.*



### BİLDİRİŞ

“Azərbaycan Sənaye Korporasiyası” ASC-nin tabeliyində olan “ASK İzolit” MMC 320 ton PE 100 və 180 ton PE 80 markalı yüksəksıxlıqlı polietilen dənəciklərinin alınması üçün təkliflər sorğusu keçirir.

Təkliflər sorğusu iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində və müqayisəsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: texniki şərtlərin yerinə yetirilməsi,aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, alınacaq xammalın çatdırılma müddətinin üç-beş gün olması, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti..

Müqaviləni yerinə yetirmək üçün Təkliflər sorğusu iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Maraqlanan təşkilatlar 050-224-05-06 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

İddiaçılar təkliflər sorğusunda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər.

*-Təkliflər sorğusunda iştirak etmək üçün yazılı müraciət;*
*-Qiymət təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 10 bank günü qüvvədə olmalıdır);*
*-Qiymət təklifi dəyərinin 1%-i həcmində bank təminatı (qiymət təklifinin qüvvədə olma müddəti bitdikdən sonra 10 bank günü);*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanlarından arayış;*
*-İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi,qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-Rəhbər şəxsin (imza sahibinin) tutduğu vəzifəni təsdiq edən sənədin surəti.*
*-Tələb olunan digər zəruri sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan təkliflər Azərbaycan dilinə tərcümə olunmalıdır)

Təkliflər sorğusu proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar prosedurda iştirak etmək üçün yuxarıda göstərilən sənədləri 9 yanvar 2019-cu il saat 15:00-dək Mingəçevir şəhəri, Heydər Əliyev prospekti 67 ünvanında yerləşən “ASK İzolit” MMC-yə yazılı formada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 10 yanvar 2019-ci il, saat 11:00-da Mingəçevir şəhəri, Heydər Əliyev 67 ünvanında yerləşən “ASK İzolit” MMC-nin AKT zalında açılacaqdır.

Zərflərin açılmasında iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**



### “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyəti
## AÇIQ TENDER ELAN EDİR

“Bakı Dəmir Yolu Vağzalı”nın inzibati binasının, vağzalın platformasının, köməkçi binaların, yeraltı keçidlərin, “Gəncə Dəmir Yolu Vağzalı”nın, “Yevlax Dəmir Yolu Vağzalı”nın, “Gəncə və Yevlax Qonaq Evi”nin və “Sürətli elektrik qatarları”nın gündəlik təmizlənməsi xidmətinin satınalınması ilə əlaqədar tenderdə iştirak etmək üçün müraciət (imzalanmış və möhürlənmiş) və 100 (yüz) manat (ƏDV daxil) məbləğində iştirak haqqını “Azərbaycan Dəmir Yolları” QSC-nin bank hesabına ödədikdən sonra satınalma predmeti üzrə əsas şərtlər toplusunu əlaqələndirici şəxsdən iş vaxtı saat 09:00-dan 18:00-a kimi ala bilərlər.

*Hesab nömrələri:*
*AZ57İBAZ38050019449345061205 (AZN);*
*AZ47İBAZ38150018409345061205 (USD);*
*AZ27İBAZ38150019789345061205 (EUR)*
*AZ64İBAZ38150018109345061205 (RUR).*
*VÖEN: 9900007721*
*Bank: Azərbaycan Beynəlxalq Bankı ASC “Nəqliyyat” filialı*
*Kodu: 805711*
*VÖEN: 9900001881*
*Müxbir hesab:*
*AZ03NABZ01350100000000002944*
*S.W.İ.F.T. Code: İBAZAZ2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əsas şərtlər toplusunu aldıqdan sonra aşağıda qeyd olunan ilkin sənədlər 14 yanvar 2019-cu il saat 18:00-dək elanda göstərilmiş ünvana təqdim edilməlidir:

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair ödəniş vaxtı keçmiş öhdəliklərinin olmaması haqqında arayış;*
*-son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*-tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-mənşə və uyğunluq sertifikatları;*
*-və tələb olunacaq digər sənədlər.*
*Tender təklifi və təklifin təminatının təqdim olunmasına dair tələblər:*
*-tender təklifi (zərflərin açıldığı gündən sonra azı 30 bank günü qüvvədə olmalıdır);*
*-tender təklifinin məbləğinin 1 %-i həcmində bank təminatı (bank təminatı təklifin qüvvədə olma müddətindən azı 30 bank günü çox olmalıdır).*

Təklif və təklifin təminatı möhürlənmiş, ikiqat zərfdə, 2 (iki) nüsxədə (əsli və surəti) 18 yanvar 2019-cu il saat 18:00-a kimi elanda göstərilmiş ünvana təqdim edilməlidir.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

**Satınalan təşkilatın ünvanı: AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Dilarə Əliyeva, 230**
**Əlaqələndirici şəxs: Nilufər İsmayılova, Satınalma şöbəsinin aparıcı mütəxəssisi**
**Telefon nömrəsi: +994 12 499-66-17; e-mail: nil.ismayilova@ady.az**

Tender təklifləri 22 yanvar 2019-cu il tarixdə, saat 11:00-da elanda göstərilmiş ünvanda açılacaqdır.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, müvafiq təcrübə, maliyyə vəziyyəti və s.

Mallar 90 (doxsan) gün müddətində göndərilməlidir.

Tender “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyəti üzrə satınalmaların təşkili və idarə olunması Qaydaları”na uyğun keçirilir.

Təkliflərin açılışında iştirakçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Satınalma Komissiyası.**



### “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyəti
## AÇIQ TENDER ELAN EDİR

Dizel yağı M14B2 (SAE), JRO yağı və Benzin mühərriklər üçün mühərrik yağının (W540) satınalınması ilə əlaqədar tenderdə iştirak etmək üçün müraciət (imzalanmış və möhürlənmiş) və 100 (yüz) manat (ƏDV daxil) məbləğində iştirak haqqını “Azərbaycan Dəmir Yolları” QSC-nin bank hesabına ödədikdən sonra satınalma predmeti üzrə əsas şərtlər toplusunu əlaqələndirici şəxsdən iş vaxtı saat 09:00-dan 18:00-a kimi ala bilərlər.

*Hesab nömrələri:*
*AZ57İBAZ38050019449345061205 (AZN);*
*AZ47İBAZ38150018409345061205 (USD);*
*AZ27İBAZ38150019789345061205 (EUR)*
*AZ64İBAZ38150018109345061205 (RUR).*
*VÖEN: 9900007721*
*Bank: Azərbaycan Beynəlxalq Bankı ASC “Nəqliyyat” filialı*
*Kodu: 805711*
*VÖEN: 9900001881*
*Müxbir hesab:*
*AZ03NABZ01350100000000002944*
*S.W.İ.F.T. Code: İBAZAZ2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əsas şərtlər toplusunu aldıqdan sonra aşağıda qeyd olunan ilkin sənədlər 14 yanvar 2019-cu il saat 18:00-dək elanda göstərilmiş ünvana təqdim edilməlidir:

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair ödəniş vaxtı keçmiş öhdəliklərinin olmaması haqqında arayış;*
*-son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*-tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-mənşə və uyğunluq sertifikatları;*
*-və tələb olunacaq digər sənədlər.*
*Tender təklifi və təklifin təminatının təqdim olunmasına dair tələblər:*
*-tender təklifi (zərflərin açıldığı gündən sonra azı 30 bank günü qüvvədə olmalıdır);*
*-tender təklifinin məbləğinin 1 %-i həcmində bank təminatı (bank təminatı təklifin qüvvədə olma müddətindən azı 30 bank günü çox olmalıdır).*

